№ 52 (943) 30 DEKABR 2016-cı il - 5 YANVAR 2017-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbriki

**-Hörmətli xanımlar və cənablar!**
**Əziz həmvətənlər!**

2015-ci il arxada qalır. 2015-ci ildə yaşadığımız regionda iqtisadi, siyasi, hərbi böhran daha da dərinləşdi, risklər artdı, təhlükələr artdı, yeni çağırışlar meydana gəldi.

Bütün bunlara baxmayaraq, Azərbaycan 2015-ci ildə uğurla inkişaf etmişdir. Bizim əsas vəzifəmiz ondan ibarət idi ki, Azərbaycan xalqının təhlükəsiz həyatını təmin edək, ölkəmizin dinamik inkişafına nail olaq. Azərbaycanda ictimai-siyasi sabitlik təmin edildi. Azərbaycan xalqı təhlükəsizlik şəraitində yaşayır və yaşayacaqdır. Eyni zamanda, 2015-ci ildə neftin qiyməti kəskin şəkildə aşağı düşmüşdür, üç dəfə aşağı düşmüşdür. Bunu ilin əvvəlində təsəvvür etmək mümkün deyildi. Ancaq bu, reallıqdır və yenə də Azərbaycanda aparılan düşünülmüş iqtisadi siyasət nəticəsində iqtisadi artım təmin edildi, Azərbaycanda qeyri-neft sektoru inkişaf etdi. Xüsusilə qeyri-neft sənayesinin 7 faizdən çox artması məni xüsusən sevindirir. Bu, onu göstərir ki, əvvəlki illərdə apardığımız siyasət öz bəhrəsini verir. Azərbaycan iqtisadiyyatı dayanıqlı iqtisadiyyatdır və neftdən asılılığımız getdikcə daha da azalacaq.

Ancaq təbii ki, bizim gəlirlərimiz kəskin şəkildə azalmışdır, milli valyutamız manat devalvasiyaya uğradı. Ancaq yenə də biz çalışırdıq, çalışırıq və çalışacağıq ki, bu vəziyyət insanların yaşayış səviyyəsinə təsir etməsin. Xüsusilə istehlak qiymətlərinin sabit saxlanması bizim əsas vəzifəmizdir.

Bu il "Kənd təsərrüfatı" ilidir. Şadam ki, kənd təsərrüfatı təxminən 7 faiz artmışdır. Bütövlükdə götürəndə bizim iqtisadi sahədə apardığımız siyasət mötəbər beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətliliyinə görə dünya miqyasında 40-cı yerdədir. Bu, böyük və tarixi nailiyyətdir. Bu, onu göstərir ki, biz düzgün siyasət aparırıq və gələcəkdə, əlbəttə, Azərbaycan xalqının maraqlarını daim təmin edəcəyik.

Azərbaycanda sosial məsələlər öz həllini tapır. Baxmayaraq ki, gəlirlərimiz kəskin şəkildə azalmışdır, bir dənə də olsun sosial proqram təxirə salınmadı. Bütün sosial layihələrimiz icra edilmişdir. Bu da siyasətimizin mahiyyətini, yəni, mənasını göstərir. Onu göstərir ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Biz güclü dövlət qururuq, güclü iqtisadiyyat qururuq, eyni zamanda, insanların rifahı bizim üçün həmişə prioritet məsələ olubdur və olacaqdır.

2015-ci ildə ölkəmizin beynəlxalq nüfuzu daha da artmışdır. Mənim xarici səfərlərim, xarici dövlət və hökumət başçılarının Azərbaycana səfərləri bunu bir daha təsdiqləyir. 2015-ci ildə rəsmi səfərlərdə və beynəlxalq tədbirlərdə iştirak etmək üçün müxtəlif ölkələrdə olmuşam, 20 xarici səfər həyata keçirmişəm və bu il Azərbaycanda 15 dövlət və hökumət başçısı rəsmi və qeyri-rəsmi səfərlərdə olmuşlar.

Eyni zamanda, bizim apardığımız xarici siyasət dünya birliyi tərəfindən yüksək qiymətləndirilir, rəğbətlə qarşılanır. Çünki biz müstəqil siyasət aparırıq. Bizim hər bir məsələ ilə bağlı prinsipial mövqeyimiz vardır. Heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Azərbaycan müstəqil siyasət aparır. Bu siyasət Azərbaycan xalqının maraqlarını müdafiə edir. Bizə qarşı olan təzyiqlər, hədə-qorxular bizim siyasətimizə zərrə qədər təsir etmir və etməyəcək. Biz heç kimdən və heç nədən qorxmuruq. Bizim əsas vəzifəmiz xalqa xidmət etməkdir və ölkəmizin beynəlxalq nüfuzunu qaldırmaqdır.

Sizi əmin edirəm ki, 2016-cı ildə də və bundan sonrakı illərdə də Azərbaycan prinsipial siyasətdən dönməyəcək, müstəqil siyasət aparacaq və bizə qarşı kampaniya aparmaq istəyənlər bunu nəzərə alsınlar. Onların səyləri əbəsdir, bizim siyasətimizə təsir etmir və heç vaxt etməyəcəkdir.

Xarici siyasətimizin əsas prioriteti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Əfsuslar olsun ki, 2015-ci ildə bu istiqamətdə heç bir irəliləyiş olmamışdır. Bunun da səbəbi xalq üçün aydındır. Ermənistan sülh istəmir. Münaqişəni uzatmaq istəyirlər, vaxt udmaq istəyirlər. Danışıqlarda özlərini qeyri-səmimi aparırlar və müxtəlif bəhanələrlə çalışırlar ki, bu danışıqlar prosesi daim davam etsin.

Bizim siyasətimiz bundan ibarətdir ki, bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. İşğalçılar işğal edilmiş bütün torpaqlardan çıxarılmalıdır və Azərbaycan vətəndaşları doğma torpaqlara qayıtmalıdırlar.

Münaqişənin həlli üçün BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdir. Bu qətnamələrdə göstərilir ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan qeyd-şərtsiz və dərhal çıxarılmalıdır. Bu qətnamələr münaqişənin həlli üçün əsas sənəddir və bu məsələ məhz bu çərçivədə öz həllini tapmalıdır. Azərbaycan heç vaxt imkan verməyəcək ki, bizim torpağımızda ikinci süni erməni dövləti yaransın. Dağlıq Qarabağın müstəqilliyini heç vaxt heç kim qəbul etməyəcək. Biz çalışacağıq ki, həm siyasi, diplomatik, həm iqtisadi və digər vasitələrlə ərazi bütövlüyümüzü bərpa edək. Haqq-ədalət bizim tərəfimizdədir, siyasi və iqtisadi güc bizim mövqeyimizi dəstəkləyir, gücləndirir. Əminəm ki, biz istədiyimizə nail olacağıq, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcəkdir.

Buna nail olmaq üçün əlbəttə ki, diplomatik səylərlə yanaşı, güclü hərbi potensial olmalıdır və biz bunu yaradırıq. Artıq Azərbaycan xalqı da görür ki, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır.

2015-ci ildə düşmənin bütün təxribatlarına tutarlı cavab verilmişdir. Düşmənə sarsıdıcı zərbələr endirilmişdir və döyüş meydanında yaranmış vəziyyət bir daha bizim üstünlüyümüzü göstərir. Biz münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Ancaq öz prinsipial mövqeyimizdən dönməyəcəyik və lazım olarsa hərbi gücdən istifadə etmək bizim suveren hüququmuzdur.

2015-ci ildə də məcburi köçkünlərin problemləri öz həllini tapıb. Hər il minlərlə köçkün yeni evlərə, mənzillərə köçürülür. Bu siyasət gələn il də davam etdiriləcəkdir.

2015-ci ildə enerji sahəsində önəmli addımlar atılmışdır. TANAP layihəsinin icrası başlamışdır. Artıq TANAP layihəsinin həyata keçirilməsi reallıqdır. Burada Azərbaycan tərəfdaş ölkələrlə çox mühüm rol oynayır, böyük işlər aparır. TANAP layihəsinin əsas səhmdarı və əsas investoru Azərbaycandır. Bu layihə bizə imkan verəcək ki, zəngin qaz resurslarımızı bundan sonra onilliklər ərzində dünya bazarlarına çatdıraq və beləliklə, ölkəmizin siyasi və iqtisadi maraqlarını daha dolğun şəkildə təmin edək.

Bu il nəqliyyat dəhlizlərinin yaradılması ilə bağlı çox ciddi işlər aparılmışdır. Şərq-Qərb nəqliyyat dəhlizi artıq reallaşır. Çindən, Orta Asiyadan Azərbaycana, Azərbaycandan Gürcüstan, Türkiyə vasitəsilə Avropaya uzanan yeni "İpək Yolu" layihəsi reallaşır və burada Azərbaycanın rolu kifayət qədər önəmlidir. Eyni zamanda, Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması üçün Azərbaycan konkret addımlar atır. Əminəm ki, bu layihə də uğurla reallaşacaq və beləliklə bundan sonra – bu iki mühüm layihə reallaşandan sonra Azərbaycan dünya miqyasında əvəzolunmaz tranzit ölkəsinə çevriləcəkdir. Bu, nə deməkdir, bunu izah etməyə ehtiyac yoxdur.

Bu il tarixdə ilk dəfə olaraq Avropa Oyunları keçirilmişdir. Azərbaycan burada da öz gücünü göstərdi. Altı mindən çox idmançı, minlərlə qonaq ölkəmizə gəlmişdir və ölkəmizin reallıqları ilə özləri tanış ola bilmişdir. Avropa Oyunları Yay Olimpiya Oyunlarının səviyyəsində keçirilmişdir. Avropa Oyunları Azərbaycan dövlətinin təntənəsidir. Eyni zamanda, Azərbaycan idmanının təntənəsidir. Çünki bizim idmançılarımız, milli komandamız 56 medal qazanaraq, - onlardan 21-i qızıl medaldır, - komanda hesabında ikinci yerə layiq görülmüşdür. Bu, doğrudan da ölkəmizin böyük zəfəridir və hər bir Azərbaycan vətəndaşı fəxr edir ki, biz bu uğura imza ata bilmişik.

2015-ci ildə parlament seçkiləri keçirilmişdir. Bu da ölkəmizin inkişafı üçün çox önəmli hadisə idi. Parlament seçkiləri şəffaf, ədalətli keçirilmişdir. Bütün beynəlxalq müşahidəçilər bunu qeyd etmişlər. Azərbaycan xalqının iradəsi öz əksini tapmışdır. Parlament seçkilərinin nəticələri xalq tərəfindən bizim siyasətimizə verilən yüksək qiymətin təzahürüdür. Mən bunu belə qəbul edirəm.

Azərbaycan demokratiya yolu ilə gedir, inkişaf yolu ilə gedir və bu, bizim şüurlu seçimimizdir. Xalq-iqtidar birliyi, milli həmrəylik bu gün ən yüksək səviyyədədir.

Əziz dostlar, bu gün Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür. Fürsətdən istifadə edərək dünyada yaşayan bütün azərbaycanlıları salamlayıram, onlara ən xoş arzularımı çatdırıram. Onlar və Azərbaycan vətəndaşları, bütün dünya azərbaycanlıları bilirlər ki, bu gün Azərbaycan müstəqillik və inkişaf yolu ilə uğurla gedir. Bu gün müstəqil Azərbaycan güclü dövlətdir. Bizim əsas vəzifəmiz ondan ibarətdir ki, dövlətimizi daha da gücləndirək, Azərbaycan xalqının daha da yaxşı həyatını təmin edək.

Mən bütün Azərbaycan vətəndaşlarını, dünya azərbaycanlılarını Dünya Azərbaycanlarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə ürəkdən təbrik edirəm, hər bir Azərbaycan ailəsinə yeni uğurlar, xoşbəxtlik arzulayıram.

**Bayramınız mübarək olsun!**




PAŞA Bank

Yeni il bayramı
münasibəti ilə
Azərbaycan xalqına
sevinc, səadət,
firavanlıq arzulayırıq.

# "ASAN xidmət" öz fəaliyyətini genişləndirir

**Dekabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda 1 saylı "ASAN kommunal" Mərkəzinin açılışında iştirak edib və Biləcəri stansiyasında səyyar "ASAN qatar"la tanış olub.**



Prezident Administrasiyanın hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov mərkəzdə yaradılan şərait barədə dövlətimizin başçısına məlumat vermişlər.

"ASAN kommunal" mərkəzlərinin yaradılması ilə bağlı tədbirlər haqqında Prezident İlham Əliyevin bu ilin mayında imzaladığı Fərmanla bu mərkəzlərin yaradılması Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə tapşırılıb. Pilot layihə çərçivəsində 1 saylı "ASAN kommunal" Mərkəzi paytaxtın Nəsimi, Nərimanov və Binəqədi rayonlarında qeydiyyatda olan 653 600 vətəndaşa xidmət edəcək.

Mərkəzdə dövlətimizin başçısının "ASAN xidmət" binalarının açılışı, həmçinin "Azərişıq", "Azərsu", "Azəriqaz" qurumlarının müxtəlif tədbirləri zamanı çəkilən fotolardan ibarət stend də var. Ümumi sahəsi 2800 kvadratmetr olan Mərkəzdə 3 qurum - "Azərişıq" və "Azərsu" Açıq Səhmdar cəmiyyətləri, həmçinin "Azəriqaz" İstehsalat Birliyi tərəfindən vətəndaşlara 45 növ xidmət göstəriləcək. Burada, eyni zamanda, bank və sığorta xidmətləri də təşkil edilib. Mərkəzdə 85 əməkdaş və 20 könüllü xidmət edəcək. Müasir İKT avadanlığı ilə təchiz olunan binada istirahət və stress əleyhinə otaqlar, kafe, ana-uşaq otağı, uşaq əyləncə mərkəzi də fəaliyyət göstərəcək. Mərkəzdə növbə sisteminin tənzimlənməsi üçün xüsusi monitorlar, daim internetə açıq özünəxidmət kompüterləri, rüsumlar, xidmətlər haqqında məlumatları və ərizə nümunələrinin doldurulmasını əks etdirən "elektron məlumat köşkü", "ASAN ödəniş" terminalları, "108 Çağrı mərkəzi"nə zəng köşkü quraşdırılıb.

Dövlətimizin başçısı mərkəzin kollektivi ilə görüşərək çıxış etmişdir.

Daha sonra Prezident İlham Əliyev səyyar "ASAN qatar"la tanış olmaq üçün "Azərbaycan Dəmir Yolları" QSC-nin Biləcəri stansiyasına gəlmişdir.

"Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov görülən işlərlə bağlı dövlətimizin başçısına ətraflı məlumat vermişdir.

Prezident İlham Əliyevin tapşırığı əsasında "ASAN xidmət" mərkəzlərinin olmadığı regionlarda vətəndaşların dövlət xidmətləri ilə təmin edilməsi üçün müasir texniki avadanlıqla təchiz olunmuş səyyar "ASAN qatar" konsepsiyası reallaşdırılıb. Bakı vaqon deposunda "ASAN qatar" sisteminin tətbiqi ilə bağlı xüsusi vaqonlar hazırlanıb. Səyyar "ASAN qatar" gözləmə zalı, laboratoriya, xidmət zalı, əməkdaşların istirahət kupeləri olmaqla 4 vaqondan ibarətdir.

Bildirilmişdir ki, ölkəmizdə geniş dəmiryolu şəbəkəsindən, mövcud infrastrukturdan, kommunikasiya xətləri və ən müasir texnologiyalardan istifadə edərək yerlərdə vətəndaşlara yeni konsepsiya ilə xidmət göstərilməsi nəzərdə tutulur.

## "Bakı Ağ Şəhər" sahibkarlığın inkişafına dövlətin hərtərəfli dəstəyinin əyani təcəssümüdür

Dekabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva "Bakı Ağ Şəhər"də görülən işlərlə tanış olub, Fəvvarələr Meydanı parkı, ictimai parkinq və piyada keçidi kompleksinin təməlqoyma mərasimində iştirak ediblər.

"Azəravtoyol" ASC-nin sədri Saleh Məmmədov və "Bakı Ağ Şəhər" layihəsinin icraçı direktoru Ruslan Sadıxov dövlətimizin başçısına ötən müddətdə görülən işlər barədə məlumat vermişlər.

Burada mükəmməl infrastruktur formalaşdırılıb. Xəqani Rüstəmov küçəsi ilə Nobel prospektinin kəsişməsindəki yeraltı piyada keçidində işlər tamamlanmaq üzrədir. Burada 220 metr uzunluğunda qalereyanın tikintisi yekunlaşıb, hazırda mərmər-qranitdən istifadə olunmaqla tavanın üzlənməsi işləri davam etdirilir. Həmin keçiddə 8 eskalator quraşdırılıb. Bundan başqa, layihə çərçivəsində daha iki piyada keçidinin inşası nəzərdə tutulur.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Yaşıl Ada kvartalı çərçivəsində salınan yeni yaşıllıq məkanı ilə də tanış olmuşlar.

Qeyd edilmişdir ki, şəhərin qədim və iri parklarından olan Nizami Parkının yaxınlığında yerləşən Knightsbridge (Naytsbric) kompleksində yaşayış binaları, biznes mərkəzi və məktəbin tikintisi aparılır. Park rayonunda 20 mərtəbəli binalar inşa olunur, yeni istinad divarı tikilir. "Bakı Ağ Şəhər" layihəsi dünyada iqtisadi və maliyyə böhranının tüğyan etdiyi indiki dövrdə Azərbaycanda investisiyalar üçün yaradılan əlverişli biznes mühitinin, sahibkarlığın inkişafına dövlətin hərtərəfli dəstəyinin və insan amilinin əsas meyarlarından biri olmasının əyani təcəssümüdür.

# Vergilər Nazirliyində mətbuat konfransı keçirilib

**Dekabrın 29-da Vergilər Nazirliyində ölkənin aparıcı KİV nümayəndələrinin iştirakı ilə Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərə həsr olunmuş mətbuat konfransı keçirilib.**

Mətbuat konfransında çıxış edən vergilər nazirinin müavini, 3-cü dərəcəli vergi xidməti müşaviri Sahib Ələkbərov bildirib ki, Milli Məclis tərəfindən qəbul olunaraqölkə Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanmış "Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Qanunvergi sistemində həm həcm, həm də mahiyyət baxımından olduqca ciddi dəyişikliklərə əsas verir. Bütövlükdə Vergi Məcəlləsində 201 dəyişikliyin aparıldığını qeyd edən nazir müavini Məcəlləyə 115 yeni maddənin əlavə olunduğunu, 83 maddəyə isə dəyişiklik edildiyinivə 3 maddənin ləğv olunduğunu bildirib.Qeyd olunub ki, edilmiş dəyişikliklərdən 123-ü vergi inzibatçılığının, o cümlədən, vergi uçotunun təkmilləşdirilməsi və şəffaflaşdırılması, 34-ü vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, 8-i isə vergi yükünün azaldılması, vergi güzəştləri və vergidən azadolmalarla bağlıdır.

**S.Ələkbərov vurğulayıb ki, ölkə Prezidentinin bu ilin avqust ayında imzaladığı "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında" Sərəncamına əsasən hazırlanmış əlavə və dəyişikliklərin əsas məqsədi sahibkarlığın, xüsusilə də kiçik və orta biznesin inkişafına daha əlverişli şəraitin yaradılması, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimadın formalaşdırılması, nağdsız əməliyyatların həcmininvə vergi mühtinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviq edilməsi, ixracın stimullaşdırılması, dürüst və şəffaf uçotun qurulmasıdır.**

Mətbuat konfransında çıxış edən Vergilər Nazirliyinin vergi siyasəti və strateji araşdırmalar Baş idarəsinin rəisi, baş vergi xidməti müşaviri Samirə Musayeva Vergi Məcəlləsində nəzərdə tutulan vergi güzəştləri və azadolmalarla bağlı dəyişikliklərin vergi ödəyicilərinin vergi yükünün azaldılmasına, onların dövriyyə vəsaitlərindən səmərəli istifadə etmələrinə şərait yaradacağını, sahibkarlığın inkişafına dəstək verəcəyini vurğulayıb. Qeyd edilib ki, icbari tibbi sığorta və səhiyyə (tibb) xidmətləri göstərən qurumların gəlirləri mənfəət vergisindən müddətsiz, buğdanın idxalının və satışı, buğda unu və çörəyin istehsalı və satışı, quş ətinin satışı isə 3 il müddətində ƏDV-dən azad edilib. Bankların restrukturizasiya və sağlamlaşdırma tədbirləri çərçivəsində qeyri-işlək (toksik) aktivlərinin təqdim edilməsi 2017-ci il yanvarın 1-dən 3 il müddətinə ƏDV-dən azad edilib.

**Məcəlləyə edilmiş mühüm dəyişikliklərdən biri də sahibkarlıq fəaliyyəti subyektləri arasında malların, işlərin və xidmətlərin təqdim edilməsi zamanı elektron qaimə-fakturanın təqdim olunmasıdır. Bu tələb ƏDV ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər üçün 2017-ci ilin aprelindən, bütün digər vergi ödəyiciləri üçünsə 2018-ci ilin yanvarından qüvvəyə minəcək.**

Məcəlləyə güzəştli vergi tutulan ölkələrdə təsis edilmiş subyektlərə rezidentlər və qeyri-rezidentlərin Azərbaycan Respublikasındakı daimi nümayəndəlikləri tərəfindən birbaşa və ya dolayısı ilə edilən ödənişlərin Azərbaycan mənbəyindən gəlirlərə aid edilməsini və həmin ödənişlərdən ödəmə mənbəyində əlavə 10 faiz dərəcə ilə verginin tutulmasını nəzərdə tutan müddəalar daxil edilib.

Məcəlləyə edilmiş dəyişikliklərdən biri də kənd təsərrüfatı məhsullarının pərakəndə satışı zamanı ƏDV-nin ticarət əlavəsindən hesablanması ilə bağlıdır. Kənd təsərrüfatı məhsullarının istehsalçıları vergilərdən azad edilsə də, onların məhsulları ticarət şəbəkələri tərəfindən pərakəndə qaydada satılarkən bu məhsulların da tam dəyəri ümumi qaydada ƏDV-yə cəlb edilir, bu da pərakəndə satış qiymətində bahalaşmaya səbəb olurdu.

Vergi Məcəlləsində yer alan daha bir yenilik sabit veriginin tətbiqi ilə bağlıdır. Qeyd olunub ki, sabit vergi fərdi qaydada, yəni muzdlu işçi cəlb etmədən müəyyən fəaliyyət növləri ilə məşğul olan fiziki şəxslərə tətbiq ediləcək.

Mətbuat konfransında nazirliyin rəhbər vəzifəli şəxsləri KİV nümayəndələrinin çoxsaylı suallarını cavablandırıblar.




"Azərbaycan dünyaya günəş kimi doğacaq".

*Heydər Əliyev*



*31 dekabr - dünya azərbaycanlılarının Həmrəylik günü və Yeni il münasibəti ilə Azərbaycan xalqını təbrik edir, firavanlıq və xoşbəxt gələcək arzulayır.*

# UNEC-də görkəmli alim Aqil Əliyevin 90 illik yubileyi qeyd edilib












**Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Əməkdar Elm Xadimi, AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor Aqil Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr edilən elmi-praktik konfrans keçirilib. Konfransa tanınmış iqtisadçı-alimin həmkarları, dostları, yaxınları, elm xadimləri, ziyalılar qatılıb.**

UNEC-in rektoru, professor Ədalət Muradov görkəmli alimin yubileyinin Azərbaycan Prezidenti İlham Əliyevin "Aqil Əliyevin 90 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamına uyğun olaraq təşkil edildiyini bildirib. Aqil Əliyevin ölkənin sosial-iqtisadi inkişafı sahəsində, xüsusən əhalinin sosial rifahının yaxşılaşdırılması ilə bağlı apardığı tədqiqatların ölkənin gələcək inkişafında əhəmiyyətli olacağını qeyd edib. Rektor görkəmli alimin müstəqil Azərbaycanın dinamik inkişafında mühüm rol oynayan, bu günün stabilliyini təmin edən bir ailənin təmsilçisi olduğunu xüsusi vurğulayıb.

Aqil Əliyevin məhsuldar elmi tədqiqatlarla yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olduğunu konfrans iştirakçılarının diqqətinə çatdıran rektor, bu gün ölkədə və




Azərbaycanın hüdudlarından kənarda görkəmli alimin ideyalarını reallaşdıran çoxsaylı tələbələri olduğunu deyib: "Biz iqtisadçılar üçün Aqil Əliyevin töhfələrini öyrənmək şərəfdir".

UNEC-in Gümrük işi və ticarət kafedrasının müdiri, professor Arif Şəkərəliyev Azərbaycan iqtisad elminin görkəmli siması Aqil Əliyevin zəngin elmi yaradıcılığından, əsərlərinin əhəmiyyətindən, yüksək insani keyfiyyətlərindən söz açıb. Aqil Əliyev iqtisad elminə qiymətli töhfələr verən alim idi. Onun elmi fəaliyyətində Azərbaycanın sosial-iqtisadi inkişafında




islahatların rolu, əhalinin həyat səviyyəsinin yüksəldilməsinin aktual problemlərinin araşdırılması mühüm yer tutur.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti, Milli Məclisin komitə sədri, akademik İsa Həbibbəyli bildirib ki, ölkəmizdə ictimai və humanitar elmlərin əsas istiqamətini təşkil edən cəmiyyətin inkişafı məsələləri elmdə müxtəlif aspektlərdə araşdırılır. Aqil Əliyevin cəmiyyətin inkişafında sosial sahənin roluna və əhəmiyyətinə həsr edilən qiymətli elmi əsərləri ilə iqtisad elmindəki boşluqlar aradan qaldırılıb.

Akademik, Milli Məclisin komitə sədri Ziyad Səmədzadə görkəmli iqtisadçının məhsuldar elmi tədqiqatları ilə yanaşı, pedaqoji fəaliyyətinə də diqqət çəkib. Z.Səmədzadə bildirib ki, görkəmli alim insanın sosial həyatını onun cəmiyyətdəki yeri və rolu ilə əlaqəli araşdırıb, ümumiləşdirmələr aparıb və elmi nəticələr çıxarıb, beləliklə elmdə Azərbaycan cəmiyyətinin sosial siması müəyyənləşdirilib. Bu mənada Aqil Əliyevin ölkəmizdə sosial sahənin



iqtisadiyyatına həsr olunan əsərləri cəmiyyətin aktual məsələlərinin tədqiqinə və əsaslandırılmasına xidmət edir.

Akademik Əhliman Əmiraslanov görkəmli alimin fəaliyyəti boyunca səhiyyənin iqtisadi problemlərinə diqqət çəkdiyini vurğulayıb. Qeyd edib ki, Aqil Əliyevin tədqiqatlarında səhiyyə ilə iqtisadi inkişaf arasında qarşılıqlı əlaqə məsələləri xüsusi yer tutub. O, səhiyyə xidmətlərinin planlaşdırılması, ayrılan xərclərin dinamik artımının təmini, demoqrafik inkişaf göstəricilərinin yaxşılaşdırılması istiqamətində araşdırmalar aparıb, sosial sahələrin, o cümlədən səhiyyənin qalıq prinsipi əsasında maliyyələşdirilməsindən imtina edilməsini konkret faktlarla əsaslandırıb. Alim Azərbaycanda məhsuldar qüvvələrin yerləşdirilməsi sxeminin tərtibçilərindən biri olub.

Respublika Ağsaqqallar Şurasının sədr müavini, akademik Teymur Bünyadov Aqil Əliyevin Azərbaycanda elmi-texniki inkişafın kompleks proqramının işlənib hazırlanmasında yaxından iştirak etdiyini bildirib. Eyni zamanda, əhalinin sağlamlığının qorunması ilə bağlı iqtisadi problemlərin təhlili üzərində ardıcıl çalışdığını, respublikada məhsuldar qüvvələrin inkişaf sxeminin hazırlanmasının müəlliflərindən olduğunu diqqətə çatdırıb. Alimin iqtisadi islahatların sosial tərəqqidə rolu, bazar münasibətləri şəraitində əhalinin sosial problemlərinin öyrənilməsi sahəsindəki araşdırmaları elmi ictimaiyyət tərəfindən maraqla qarşılandığını vurğulayıb.

Konfransın sonunda Aqil Əliyevin ailə üzvləri adından qızı Zərifə Əliyeva çıxış edərək, belə nüfuzlu konfransın təşkilinə görə UNEC kollektivinə minnətdarlığını bildirib. Z.Əliyeva Prezident İlham Əliyevin və onun xanımının Azərbaycanın inkişaf etdirilməsi, xalqın həyat səviyyəsinin yaxşılaşdırılması ilə bağlı gördükləri işləri müsbət qiymətləndirərək, ölkədə elm adamlarına verilən yüksək qiymətdən danışıb.



# Vergilər Nazirliyində kollegiya iclası keçirilib

*«Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Qanunun tətbiqi ilə bağlı Tədbirlər Planı qəbul edilib*


Trend

Dekabr ayının 28-də «Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 23 dekabr 2016-cı il tarixli Qanununun tətbiqi ilə bağlı Vergilər Nazirliyi qarşısında duran vəzifələrə həsr edilmiş kollegiya iclası keçirilib.

İclasda çıxış edən vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında sahibkarlığın inkişafının dəstəklənməsi, özəl sektorun fəaliyyətinin genişləndirilməsi, iqtisadiyyata investisiya qoyuluşlarının stimullaşdırılması istiqamətində həyata keçirilən iqtisadi siyasətin tərkib hissəsi olaraq, ötən illər ərzində milli vergi sistemində də geniş islahatlar aparılıb. Çevik vergi siyasətinin həyata keçirilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin qarşılıqlı etimada əsaslanan şəffaf mexanizmlər əsasında qurulması, onlara geniş xidmətlərin, o cümlədən elekron xidmətlərin təqdim edilməsi istiqamətində əhəmiyyətli işlər görülüb.

Vergilər naziri Azərbaycan Respublikası Prezidentinin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli sərəncamına toxunaraq bildirib ki, sərəncamdan irəli gələn məsələlərin həlli, vergi orqanları qarşısında qoyulmuş vəzifələrin icrası, vergi ödəyiciləri ilə qarşılıqlı etimada əsaslanan partnyorluq münasibətlərinin qurulması məqsədilə ötən müddət ərzində nazirliyin strukturu və menecmenti müasir idarəetmənin tələblərinə uyğun olaraq yenidən qurulub və bu istiqamətdə işlər davam etdirilir. Cari ilin sentyabr ayında Qlobal Forumun Qiymətləndirmə Qrupu Azərbaycan Respublikasının vergi sistemində şəffaflığın və məlumat mübadiləsi sisteminin beynəlxalq standartlara uyğunluğu ilə bağlı ölkə hesabatını qəbul edərək yüksək reytinq verib.

F.Məmmədov sərəncamdan irəli gələn məsələlərin həlli məqsədilə «Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» və digər qanun layihələrinin artıq qəbul olunduğunu və dövlət başçısı tərəfindən imzalandığını diqqətə çatdırıb. Vergi Məcəlləsinə həm həcm, həm də mahiyyət baxımından olduqca ciddi dəyişikliklər edildiyini vurğulayan nazir bildirib ki, dəyişikliklərin əsas məqsədi sahibkarların, xüsusilə kiçik və orta biznesin inkişafına daha əlverişli şəraitin yaradılması, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimadın səviyyəsinin yüksəldilməsi, nağdsız əməliyyatların həcminin artırılması, pul dövriyyəsinin tənzimlənməsi, bankların likvidliyinin və bilavasitə vergi mühitinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviq edilməsi, ixracın stimullaşdırılması, dürüst və şəffaf uçotun qurulmasıdır.

Kollegiya iclasında Vergi Məcəlləsində dəyişikliklərdən irəli gələn məsələlərlə bağlı müzakirələr aparılıb, real vergi potensialının dəqiqləşdirilməsi və bu sahədə şəffaflığın təmin edilməsi, vergi bazasının genişləndirilməsi, habelə uçot və risklərin idarə edilməsi sahələrində nəzarətin gücləndirilməsi, vergi ödəyicilərinə göstərilən xidmətlərin genişləndirilməsi sahəsində görülən işlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində mövcud vəziyyət ətraflı müzakirə edilib.

İclasda «Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı Tədbirlər Planı» qəbul edilib.

Kollegiya iclasında yekun nitqi ilə çıxış edən vergilər naziri Fazil Məmmədov Tədbirlər Planında nəzərdə tutulmuş məsələlərin çevik və sürətlə icrasının təmin olunması məqsədilə vergilər nazirinin rəhbərlik etdiyi, nazir müavinlərinin və bir sıra qurum rəhbərlərinin də daxil olduğu İdarəetmə Mərkəzinin yaradılması ilə bağlı konkret tapşırıqlar verib.

# Vergilər naziri Ucarda vətəndaşları qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdıqları problemlərin həllinə kömək göstərirlər.

Dekabr ayının 23-də vergilər naziri Fazil Məmmədov Ucar şəhərində Zərdab, Ağdaş, Göyçay, Ucar və Kürdəmir rayonlarından olan vətəndaşları qəbul edib. Qəbulda Vergi Məcəlləsinə edilmiş son dəyişikliklər, vergilərin hesablanması, ödənilməsi, əmək müqavilələrinin bağlanması, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, əməkhaqqı fondundan ödənilən icbari ödənişlər, vergi ödəyicilərinə göstərilən xidmətlər, vergi orqanlarına işə qəbul, yerli (bələdiyyə) vergilərin toplanması prosesində rast gəlinən müxtəlif çətinliklər və digər məsələlərlə bağlı vətəndaşların müraciətlərinə baxılıb.

Qəbul zamanı qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunub, müraciətlərin bir qismi nəzarətə götürülüb, digərlərinin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib. Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan razılıqlarını bildiriblər.



AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ 1930

*Yeni təqvim ili münasibəti ilə xalqımıza can sağlığı, xoşbəxtlik, firavanlıq, Azərbaycan Respublikasının tərəqqisi naminə daha böyük uğurlar arzulayırıq.*

# Magistral qaz kəmərləri sahələrinin müasirləşdirilməsi və yenidənqurulması "Qaz İxrac" İdarəsinin fəaliyyətinin əsas istiqamətlərindəndir

**Azərbaycan yalnız öz enerji potensialını və enerji təhlükəsizliyini təmin etməklə kifayətlənmir, eyni zamanda digər ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasına da töhfə verir. Ölkəmizdə uğurla davam etdirilən uzunmüddətli neft və qaz strategiyası respublikamızın enerji təhlükəsizliyini təmin etməklə yanaşı, Azərbaycanı dünya birliyinə çox etibarlı ölkə və etibarlı tərəfdaş kimi təqdim etmiş, ölkənin neft və qaz potensialının nəinki region üçün, eləcə də dünya üçün əhəmiyyət daşıdığını sübut etmişdir.**

**Qağaməli SEYFULLAYEV,**
*"Qaz İxrac" İdarəsinin rəisi*

Hazırda əsas strategiyamız ölkənin yanacaq - enerji təhlükəsizliyini, neft-qaz və neft-kimya sənayesinin inkişafı üzrə strateji maraqları təmin etmək, qabaqcıl və ekoloji təmiz texnologiyalardan istifadə edərək Azərbaycanın elmi-texniki, iqtisadi və intellektual potensialının artırılmasına nail olmaq, regional və beynəlxalq enerji layihələrində həlledici mövqe tutmaq, karbohidrogen ehtiyatlarının və emal məhsullarının daxili və xarici bazarlarda satışından maksimum mənfəət əldə etməkdir.

SOCAR rəhbərliyinin əmri ilə 15 yanvar 2013 – cü il tarixdə "Azəriqaz" İB – nin tabeçiliyində hüquqi şəxs statusuna malik olmayan təşkilatlar kimi fəaliyyət göstərən Abşeron, Astara, Ağdaş, Ağdam, Qazax, Siyəzən, Hacıqabul Magistral Qaz Kəmərləri sahələri (MQKS) və Qaz kəmərlərinin korroziyadan mühafizəsi, elektrik təchizatı və radio rabitə sahəsi mövcud təşkilati – hüquqi formaları saxlanılmaqla SOCAR – ın "Qaz İxrac" İdarəsinin tabeçiliyinə verilmişdir.

"Qaz İxrac" İdarəsinin struktur tərkibi idarəetmə aparatından və yuxarıda qeyd olunan 7 MQKS – dən ibarətdir. "Qaz İxrac" İdarəsinin əsas missiyası təbii qaz həcmlərinin səmərəli idarə olunması, eləcə də onun daxili və xarici bazarlarda satışını təmin etmək məqsədi ilə qazın qəbulu və nəql sistemləri ilə respublikanın enerji dəhlizinə ötürülməsi üzrə müvafiq normativ qaydalara uyğun texniki, texnoloji, metroloji və kommersiya əməliyyatlarının aparılmasından ibarətdir. İdarə həmçinin mövsümlə əlaqədar yeraltı qaz anbarlarında qazın tədarükünü, əhali və digər istehlakçıları təbii qazla fasiləsiz və təhlükəsiz, eyni zamanda istehlakçıların təbii qaza artan tələbatını təmin etmək məqsədilə magistral qaz kəmərləri sahələrinin yenidən qurulması, müasirləşdirilməsi istiqamətində də tədbirlər planını həyata keçirir.

Respublikamızın təsdiq olunmuş qaz ehtiyatları təxminən 2.55 trln. kub metr təşkil edir. 2013 - cü il üzrə Azərbaycanın qaz hasilatı təxminən 29 mlrd. kub metr, 2014 – cü il üzrə 30 mlrd. kub metr, 2015-ci il üzrə 29 mlrd. kub metr, 2016-cı ilin 10 ayı üzrə isə təqribən 25 mlrd. kub metr təşkil etmişdir. Azərbaycandan qazın ixracı aşağıdakı istiqamətlər üzrə həyata keçirilir:

## Gürcüstan

Gürcüstana 2013 – cü ildə təqribən 1.0 milyard kub metr, 2014-cü ildə 1.2 mlrd. kub metr, 2015-ci ildə 1.4 mlrd. kub metr, 2016-cı ilin 10 ayı ərzində isə 0.8 mlrd. kub metr həcmində təbii qaz ixrac olunmuşdur.

## İran

Naxçıvan Muxtar Respublikasının qaza olan tələbatını təmin etmək məqsədi ilə Astaradan İran İslam Respublikasına (İİR) müvafiq uzunmüddətli (2025-ci ilə qədər) mübadilə (swap) müqaviləsi çərçivəsində illik təqribən 400 mln. kub metr Azərbaycan mənşəli təbii qaz təchiz olunur ki, bunun da 350 mln. kub metri sonradan Naxçıvana çatdırılır. Bu məqsədlə təchiz olunan təbii qazın tam həcminin dəyəri ödənişsiz və maliyyə əməliyyatları olmadan beynəlxalq "swap" şərtləri əsasında həyata keçirilir.

2013 – cü ildə 0.4 mlrd. kub metr, 2014-cü ildə 0.4 mlrd. kub metr, 2015-ci ildə 0.3 mlrd. kub metr təbii qaz İrana təhvil verilmişdir.

Azərbaycanda qaz hasilatının mühüm hissəsi "Şahdəniz" yatağının payına düşür. "Şahdəniz" dünyanın ən böyük qaz-kondensat yataqlarından biridir. O, Bakıdan 70 kilometr cənub-şərqdə, suyun dərinliyinin 50-500 m arasında dəyişdiyi Xəzər dənizinin şelfində yerləşir. Bu yatağın istismarı Azərbaycanın qaza olan daxili tələbatını tam ödəməyə və tələbatdan artıq qazı, tarixdə ilk dəfə olaraq ixrac etməyə imkan verir. Yatağın təbii qaz ehtiyatları 1,2 trln. kub metr, kondensat ehtiyatı isə 240 mln. tondan artıq qiymətləndirilir.

Yatağın birinci mərhələ üzrə istismarına 2006-cı ilin sonunda başlanmışdır və hal – hazırda da davam etdirilir.

Türkiyə, Gürcüstan və Azərbaycan respublikalarının enerji bazarlarının tələbatının təmin edilməsi məqsədi ilə Şahdəniz - 1 üzrə qurğuların təqribən illik 10 milyard kub metr qaz və BTC kəməri vasitəsilə ixrac olunması üçün gündəlik 45,000 barel kondensat hasilat potensialı vardır.

Uzunmüddətli alqı-satqı müqavilələri əsasında Şahdəniz-1 yatağından hasil olunan qazın illik təqribən 6,6 mlrd. kub metri Türkiyəyə, 0,8 mlrd. kub metri Gürcüstana ixrac olunur və 1,5 mlrd. kub metri Azərbaycana verilir.

Faktiki olaraq, 2013 – cü ildə Türkiyəyə 4,1 mlrd. kub metr, Gürcüstana 0,7 mlrd. kub metr qaz ixrac olunmuş və Azərbaycana 4,8 mlrd. kub metr qaz verilmişdir. 2014-cü ildə Türkiyəyə 5,8 mlrd. kub metr, Gürcüstana 0,7 mlrd. kub metr qaz ixrac olunmuş və Azərbaycana 3,1 mlrd. kub metr qaz verilmişdir. 2015-ci ildə Türkiyəyə -5.9 mlrd. kub metr, Gürcüstana 0,7 milyard kub metr həcmində qaz ixrac olunmuş, Azərbaycana 3.0 mlrd. kub metr qaz verilmişdir.

Cari ilin on ayı ərzində Türkiyəyə 5,1 mlrd. kub metr, Gürcüstana isə 0,6 mlrd. kub metr qaz təchiz olunmuş və Azərbaycana 2,9 mlrd. kub metr qaz verilmişdir.

Azərbaycanın qaz strategiyasının əsas məqsədlərindən biri ixrac istiqamətlərinin diversifikasiyasını təmin etməkdən ibarətdir.

Şahdəniz layihəsinin 2-ci mərhələsində layihənin 1-ci mərhələsindən hasil olunan illik təxminən 9 milyard kub metr qaza qarşı 16 milyard kub metr qaz hasilatının, gündəlik hasil olunan 45,000 barel kondensata qarşı 105,000 barel kondensatın hasil ediləcəyi gözlənilir.

Şahdəniz-2 layihəsi üzrə hasil ediləcək qaz Türkiyə Respublikasına və Avropa istehlakçılarına çatdırılacaqdır.

Beləliklə, layihə Gürcüstan və Türkiyə respublikaları ilə birlikdə Avropa ölkələrinin davamlı enerji təhlükəsizliyi ilə əlaqədar strateji maraqlarına xidmət edəcəkdir.

İllik hasil olunacaq 16 milyard kub metr qazın 10 milyard kub metr hissəsinin Avropaya, 6 milyard kub metr hissəsinin isə Türkiyəyə ixracı planlaşdırılır.

Türkiyə Respublikasına ilk qaz ixracı 2018-ci ildə, Avropaya isə 2020-ci ildə planlaşdırılır.

Eyni zamanda SOCAR bir sıra beynəlxalq təşkilatlarla əməkdaşlıq edir. Bunlardan biri də Beynəlxalq Qaz İttifaqıdır. Bu ittifaq dünya miqyasında qaz sənayesini təmsil edən fəal təşkilatdır və dövlət şirkətləri qismində 74 təsisçi-üzv və dünyanın aparıcı şirkətlərindən ibarət 35 assosiativ-üzvdən ibarətdir. Təsisçi üzvlər ölkələri təmsil edən aparıcı qaz şirkətləri və ya qaz ittifaqlarıdır, assosiativ üzvlər isə üzv ölkələrdə fəaliyyət göstərən qaz şirkətləridir. SOCAR 2012-ci ildə Beynəlxalq Qaz İttifaqına üzv qəbul olunmuşdur.

SOCAR – ın əməkdaşlıq etdiyi digər təşkilat isə Birləşmiş Millətlər Təşkilatının Avropa üzrə İqtisadi Komissiyasının Qaz Mərkəzidir. Bu Mərkəz bazar əsaslı qaz sənayesinin təşviqi və inkişafı üzrə texniki əməkdaşlıq proqramıdır və məqsədi Mərkəzi və Şərqi Avropanın qaz şirkətlərinin mərkəzləşmiş və bazar əsaslı qaz sənayesinin yaradılması cəhdlərini dəstəkləməkdir. SOCAR 2011-ci ildən etibarən Birləşmiş Millətlər Təşkilatının Avropa üzrə İqtisadi Komissiyasının Qaz Mərkəzində üzv kimi fəaliyyətini davam etdirir.

SOCAR-ın sözügedən qurumda iştirakının məqsədi regionun aparıcı qaz şirkətləri ilə qaz sənayesi üzrə əməkdaşlıq, təbii qazın satış bazarlarının müəyyən olunması məqsədi ilə tərəfimizdən həyata keçirilən marketinq araşdırmaları zamanı daha dürüst və dəqiq məlumatları birbaşa əldə etmək və bu şirkətlərin satış və nəql təcrübəsinə yiyələnməkdir.




SOCAR-ın tapşırığı ilə "Azəri-Çıraq-Günəşli" (AÇG) və "Şahdəniz" yataqlarından, eləcə də Əməliyyat Şirkətlərindən (ƏŞ ) hasil olunan və SOCAR-a təhvil verilən təbii və səmt qaz həcmlərinin qəbulu , Gürcüstana qaz həcmlərinin ixracı , həmçinin daxili bazarda "Azneft" İB-yə və ""Azərenerji" ASC-yə qaz həcmlərinin satışı, "Qaz İxrac" İdarəsinə məxsus istehlakçılara qazın satışı ilə əlaqədar "Azneft" İB –dən qazın alışı, Naxçıvan MR-nın təbii qaza olan tələbatının ödənilməsi məqsədi ilə İran İslam Respublikası və Azərbaycan Respublikası arasında imzalanmış "Təbii qazın mübadiləsi" müqaviləsinin icrası, "Azneft" İB və "Azəriqaz" İB üçün qaz həcmlərinin nəql xidməti, "Salyan OYL" ƏŞ və "Qaz İxrac" İdarəsi arasında bağlanmış nəql müqaviləsi üzrə Kürovdağ neftin hazırlanması məntəqəsinə qaz həcmlərinin nəqli , "SOCAR CNG" MMC və "Qaz İxrac" İdarəsi arasında bağlanmış nəql müqaviləsi üzrə "SOCAR CNG" MMC-nin " Maye Qaz 1-2 xətt" qaz ölçü qovşaqlarına qaz həcmlərinin nəqli, Rusiya Federasiyasından idxal üçün bağlanmış nəql müqaviləsi çərçivəsində "Qaz İxrac" İdarəsi tərəfindən Rusiya Federasiyasından qəbul olunan qaz həcmlərinin nəqli və "Azneft" İB və "Qaz İxrac" İdarəsi arasında bağlanmış "Qazın komissiyası haqqında" müqaviləsi üzrə "Qaz İxrac" İdarəsi tərəfindən Gürcüstan Respublikasına qaz həcmlərinin ixracı kimi işlər yerinə yetirilmişdir.

"Qaz İxrac" İdarəsi 2013-cü ilin mart ayından 2016-cı ilin oktyabrınadək olan müddəti yüksək texniki-iqtisadi göstəricilərlə başa vurmuşdur. Belə ki, bu müddət ərzində magistral nəql sisteminə 52,028 mlrd. kub metr, o cümlədən ABƏŞ-dən 22 ,688 mlrd kub metr, Əməliyyat şirkətlərindən və digər mənbələrdən 1, 452 mlrd. kub metr, "Azneft" İB-dən 27, 889 mlrd. kub metr qaz həcmi, o cümlədən Yeraltı Qaz Anbarlarından (YQA) 5,944 mlrd. kub metr qaz həcmi qəbul olunmuşdur. Qəbul olunan qaz həcmləri "Azəriqaz" İB-yə 18, 600 mlrd. kub metr, "Azərenerji" ASC-yə 17,015 mlrd. kub metr, "Azneft" İB-yə və digər mənbələrə 9,654 mlrd. kub metr, Rusiya Federasiyasına 1,259 mlrd. kub metr və Gürcüstan Respublikasına 4,026 mlrd. kub metr qaz həcmi nəql edilmişdir. Həmçinin Naxçıvan Muxtar Respublikasının qaza olan tələbatını təmin etmək məqsədi ilə Astara MQKS-in kompressor stansiyasından yüksək təzyiqlə İran İslam Respublikasına uzunmüddətli mübadilə (swap) müqaviləsi çərçivəsində təbii qaz təchiz olunur. Təchiz olunan təbii qazın tam həcminin dəyəri ödənişsiz və maliyyə əməliyyatları olmadan beynəlxalq swap şərtləri əsasında həyata keçirilir. Bu məqsədlə İran İslam Respublikası tərəfindən qəbul olunan 1, 201 mlrd. kub metr qaz həcmindən 1, 019 mlrd. kub metr "Naxçıvanqaz" İB-yə təhvil verilmişdir.

"Qaz İxrac" İdarəsi 3,4 min km magistral və qol kəmərlərinə, 204 qazpaylayıcı stansiyaya (QPS), 6 kompressor stansiyasına (KS) xidmət göstərir.

İdarənin 2013-2016-cı iliər ərzində Əsas Fondların əsaslı təmiri Proqramı çərcivəsində MQKS – lər üzrə ümumilikdə 241,7 km müxtəlif diametrli boru kəməri cəkilmişdir. O cümlədən, çəkilmiş borular diametri 1220 mm – 5,9 km, 1020 mm 8,2 km, 720 mm – 25,5 km, 530 mm – 62,9 km, 325 mm – 99,5 km, 219 mm – 7,5 km, 159 mm- 4,5 km, 108 mm – 6,8 km polad borular və PE 315 mm – 20,4 km, PE 220 mm – 488 m polietilen borulardan ibarət olmuşdur. Həmçinin, 2013-2016-cı iliər ərzində "Qaz İxrac" İdarəsi üzrə 54 ədəd QPS əsaslı təmir olunmuş, 115 ədəd QPS-də yanğın su hovuzu tikilmiş, 206 ədəd bina və qurğularda yanğın siqnalizasiya sistemləri quraşdırılmışdır. İdarənin inzibati binası, həmcinin, Qazax, Ağdaş, Siyəzən və Hacıqabul Magistral Qaz Kəmərləri Sahələrinin inzibati binaları əsaslı təmir olunmuşdur.

"Qaz İxrac" İdarəsinin sifarişi əsasında 2013 - 2016-cı illər ərzində əsaslı tikinti obyektləri üzrə 62,2 km diametri 1020 mm-lik, 19,5 km diametri 720 mm-lik, 15,8 km diametri 530 mm-lik və 24,2 km diametri 325 mm olan magistral qaz boru kəmərləri çəkilmişdir. O cümlədən, 2013-cü ildə 0,7 km, 2014-cü ildə 54,8 km, 2015-ci ildə 35,2 km və 2016-cı ildə 31,0 km boru kəməri çəkilmişdir.

Kompressor stansiyalarının yenidənqurulması işləri tərkibində Balaxanı ƏŞ – də hasil olunan səmt qazının və boruarxası qazın yığılması, təzyiqinin qaldırılaraq təhvilə çatdırılması məqsədi ilə Balaxanı kompressor stansiyasında 2 ədəd kompressor qurğusu quraşdırılmaqla kompressor binası və idarəetmə şkafları üçün bina tikilmiş, komplekt transformator məntəqəsi, dizel generatoru, nasosxana üçün talvar, 3 ədəd su nasosu, 2 ədəd soyutma sistemi qurğusu, projektor dayağı və QÖQ quraşdırılmışdır.

Avadanlıq və qurğuların elektrik təchizatının yaxşılaşdırılması işləri tərkibində Siyəzən kompressor stansiyasını elektrik enerjisi ilə təchiz edən 35/10 və 10/0,4kV-luq yarımstansiyanın yenidən qurulması üçün kabel xətləri çəkilmiş, 2 ədəd vaqon tipli yarımstansiya və 2 ədəd transformator quraşdırılmışdır.



İdarəmizə məxsus təhlükə potensiallı obyektlərin fasiləsiz, dayanıqlı və təhlükəsiz istismarının təmin edilməsi üçün bir sıra mühüm tədbirlər görülmüşdür. Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ – Mədən Nəzarəti Dövlət Agentliyinin (SİTGvəDMNDA) nümayəndələrinin iştirakı ilə obyektlərə baxış keçirilmiş, müvafiq sənədləşmə işləri aparılmışdır. Belə ki, "Neftqazelmitədqiqatlayihə" İnstitutu tərəfindən bütün MQKS-lər üçün "Təhlükəsizlik bəyannamələri" və "Qəzaların ləğvi planı", həmçinin Siyəzən, Hacıqabul, Astara və Abşeron KS-lər üçün qəzaların ləğvi planı işlənib hazırlanmış, FHN-də razılaşdırılmış və müvafiq qaydada təsdiq edilərək sahələrə göndərilmişdir. Bundan başqa "Qaz İxrac" İdarəsinin magistral qaz kəmərləri sahələrinin qaz obyektlərində odlu işlərin təhlükəsiz aparılmasına dair təlimat işlənib hazırlanmış, FHN-də razılaşdırılmış və müvafiq qaydada təsdiq edilərək sahələrə göndərilmişdir.

Bu günədək magistral qaz kəmərlərində 12 ədəd QPS modernləşdirilmiş və yeni modul tipli qaz paylayıcı stansiyalarla əvəz edilmişdir, həmçinin 31 ədəd QPS-in yeni modul tipli QPS-lərlə əvəz olunması məqsədi ilə layihə-smeta sənədləri işlənmiş, onların alınması və quraşdırılması üçün müqavilə bağlanmışdır.

Ümumilikdə "Qaz İxrac" İdarəsinin tabeçiliyində olan MQKS-lərin QPS-lərində 189 odorant qurğusu quraşdırılaraq istismar olunur. Bunlardan 116 ədədi qeyri-sənaye üsulu ilə hazırlanmışdır, 58 ədədi Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyinin Kosmik Cihazqayırma Təcrübi Zavodunun istehsalı olan yarımavtomat idarə olunan "OQ-1" tipli, 3 ədəd Rumıniyanın "Totalgaz İndustrie" şirkətinin istehsalı olan "832E" tipli, 9 ədədi Türkiyənin "Dağgaz" şirkətinin istehsalı olan avtomatik idarə olunan "DO-NG-4A" tipli və 3 ədədi elektriksiz işləyən mini odorizasiya qurğularından ibarətdir. Bununla yanaşı, 2016-cı ilin dekabr ayında SOCAR-la razılaşdırılmış daha 63 ədəd müasir odorant qurğusunun alınması üçün tender keçirilmiş və alınacaq həmin qurğuların 2017-ci il ərzində "Qaz İxrac" İdarəsinin QPS-lərində quraşdırılması planlaşdırılır.

Müdafiə Sənayesi Nazirliyi ilə bağlanmış müqaviləyə əsasən 2014-2016-cı illər ərzində "Qaz İxrac" İdarəsinin QPS-lərində Kosmik Cihazqayırma Təcrübi Zavodunda istehsal edilmiş, normativ sənədlərin tələblərinə uyğun 105 ədəd yeraltı odorant çəni quraşdırılmışdır.

Əhali sektoruna verilən təbii qazın tərkibinə əlavə olunan odorant məhlulunun müvafiq qaydada ölçülməsi üçün 8 ədəd "ODOR PLUS" markalı odorimetrlər və QPS-lərdə odorantın etibarlı və təhlükəsiz boşaldılması üçün 100 ədəd odorizə nasosları alınmış və istismara verilmişdir. Respublika üzrə odorizasiya qurğularının yeniləşdirilməsi ilə bağlı işlər isə davam etdirilir. Magistral qaz kəmərləri üzərində mövcud standartlara uyğun 22 ədəd odorant saxlama məntəqələri tikilib istifadəyə verilmişdir.

"Qaz İxrac" İdarəsinin tabeçiliyində olan QPS-lərin çıxışında əhaliyə verilən qaz xətlərində təzyiqin tələb olunan həddən çox qalxıb - enməsini xəbər verən 178 ədəd avtomatik mühafizə və siqnalizasiya sistemi quraşdırılımış, sazlanmış və istismara verilmişdir. Bu istiqamətdə də işlər davam etdirilir.

İdarənin istismarında olan AQPS, QPS və QTM – də 517 ədəd qoruyucu klapan istismar olunur. 2014 və 2015-ci illər ərzində istismarda olan qoruyucu klapanlar, müqavilə əsasında SOCAR-KPŞ tərəfindən sınaq olunmuş, tənzimlənmiş və pasportlaşdırılmışdır. 2016-cı ildə 454 ədəd qoruyucu klapan Planlı Xəbərdarlıq Təmiri qrafiki üzrə idarəmizin mütəxəssisləri tərəfindən sınaq edilmiş və tənzimlənmişdir. 63 ədəd qoruyucu klapan isə Planlı Xəbərdarlıq Təmiri qrafiki üzrə 2016-cı ilin noyabr-dekabr aylarında sınaq olunacaqdır.

"Qaz İxrac" İdarəsi üzrə cəmi 210 ədəd separator mövcuddur və bunlardan 189 ədədi SİTGvəDMNDA - nin nümayəndələrinin iştirakı ilə sınaq olunmuşdur. SOCAR KPŞ ilə bağlanmış müqavilə əsasında 2014 - 2016-cı illərdə 172 ədəd separator sınaq olunaraq pasportlaşdırılmışdır (bundan 53 ədədinin ilkin pasportu olduğu üçün ancaq sınaq olunmuş, 119 ədədi isə sınaq olunaraq pasportlaşdırılmışdır), 17 ədəd separator isə 2016-cı ildə "Qaz İxrac" İdarəsinin mütəxəssisləri tərəfindən sınaq olunmuşdur (5 ədəd separator həcmi kiçik olduğu üçün və 10 ədəd separator Siyəzən MQKS-nin Siyəzən Kompressor Stansiyasının konservasiyası ilə əlaqədar sınaq olunmamışdır. 2017-ci ildə qalan 6 ədəd separatorun sınaq olunması palnlaşdırılır). Bütün Magistral Qaz Kəmərləri Sahələri üçün "İstismarda olan separatorların qeydiyyat kitabı" tərtib edilmişdir.

- Qaranlıq sahəli mikroskopiya
- Rentgen
- USM
- Rəngli-doppler
- Endoskopiya
- EKQ (elektrokardioqrafiya)
- Exo-KQ
- EEQ (elektroensefaloqrafiya)
- Densitometriya
- KT (kompyuter tomoqramma)
- Elektromioqrafiya
- BRT (biorezonans terapiya)

**TERAPİYA**
- Allerqologiya
- Dermatologiya
- Endokrinologiya
- Kardiologiya
- Nevrologiya
- Qastroenterologiya
- Urologiya
- Andrologiya
- Oftalmologiya
- Vertebrologiya

**LABOROTORİYA**
- Klinik analizlər
- Biokimyəvi analizlər
- Hormonların təyini
- İmmunoloji analizlər
- Mikrobioloji analizlər
- Onkomarkerlərin təyini
- PZR müayinələr
- Genetik analizlər (AFGEN laboratoriya)





Göyçay: M.Muradov küç. 12
(Nizami küç., Mərkəzi Xəstəxana yolu)
Tel: (020) 274 70 80/90 (055)/(070) 259 70 90



Sumqayıt: H.Əliyev pr. 10-cu məh.
Kimya-Texnologiya kollecinin qarşısı
Tel: (012)409 10 27 (018)655 03 53 (018) 655 03 23 (050) 340 03 23




Ünvan: Bakı, 3 mkr.,
Pişəvari küç., 110 (Cavadxan küç 24),
Memar Əcəmi metrosunun yaxınlığında

/bioloji.tababat
www.btk.az

(012)/(050) (055)/(070) 430 89 89



# "Azəraqrartikinti" Səhmdar Cəmiyyəti

*"Azərbaycan xalqı dünya miqyasında böyük xalqdır. Bizim hamımızın bir vətəni var - Azərbaycan. Çalışmalıyıq ki, doğma Vətənimizi möhkəmləndirək, zənginləşdirək, qüdrətli dövlətə çevirək".*

*İlham Əliyev*

***Həmrəylik gününüz mübarək!***







# AQRARKREDİT

"Aqrarkredit" QSC Bank olmayan Kredit Təşkilatı



*"Bütün dünyada yaşayan azərbaycanlılara sülh, əmin-amanlıq arzu edirəm və onlar da bilməlidirlər ki, onların bir vətəni var, o da AZƏRBAYCANDIR".*
*İlham Əliyev*

**2017-ci il və dünya azərbaycanlılarının Həmrəylik günü münasibəti ilə Azərbaycan xalqını təbrik edirik!**





# Auditorlar Palatası

*Dünya azərbaycanlılarının Həmrəyliyi günü və Yeni il bayramı münasibəti ilə xalqımızı təbrik edirik. Yeni il sizlərə sülh, əmin-amanlıq, xeyir-bərəkət və xoşbəxtlik gətirsin.*



# KİVDF-nin keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinin qalibləri açıqlandı









**Dekabrın 22-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə keçirilmiş fərdi jurnalist yazıları müsabiqəsinin nəticələrinin müzakirəsinə və təsdiqinə həsr olunmuş iclası keçirilib.**

Müşahidə Şurasının sədri Umud Mirzəyev gündəlikdə olan məsələ barədə məlumat vermək üçün sözü Fondun icraçı direktoru Vüqar Səfərliyə verib. İcraçı direktor Fondun 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinin KİV-lərə Dövlət Dəstəyi Konsepsiyasında əksini tapmış 19 istiqaməti əhatə etdiyini bildirib.

Sonra müsabiqənin ekspertlər tərəfindən müəyyənləşdirilmiş yekun nəticələri Müşahidə Şurası üzvlərinin müzakirəsinə təqdim edilib. Şuranın sədr müavini Vüqar Rəhimzadə, üzvlərdən - Müşfiq Ələsgərli, Rəşad Məcid, İntiqam Hümbətov və Faiq Qurbanov keçirilmiş müsabiqənin jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və sosial vəziyyətinin yaxşılaşdırılması baxımından əhəmiyyətini diqqətə çəkiblər. Daha sonra müsabiqənin yekun nəticələri səsə qoyularaq yekdilliklə təsdiq edilib.

* * *

Dekabrın 23-də Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri açıqlanıb, həmçinin, ikinci və üçüncü yerlərə layiq görülmüş media nümayəndələri mükafatlandırılıblar.

Tədbirdə Fondun icraçı direktoru Vüqar Səfərli, Müşahidə Şurasının üzvləri, habelə ölkənin 30-dək aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri, yazıları qiymətləndirmiş ekspertlər və müsabiqədə qalib olmuş jurnalistlər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Fondun icraçı direktoru Vüqar Səfərli media nümayəndələrini salamlayaraq 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edib. Vüqar Səfərli il ərzində dövlət və cəmiyyət həyatında prioritet təşkil edən məsələlərin həllində kütləvi informasiya vasitələrinin potensialından səmərəli istifadə, jurnalistlərin peşəkarlığının artırılması, sosial vəziyyətinin



yaxşılaşdırılması və yaradıcı əməyinin stimullaşdırılması məsələlərinə xüsusi diqqət ayrıldığını bildirib.

Vüqar Səfərli Fond tərəfindən 2016-cı il ərzində Novruz bayəramı, Azərbaycan Milli Mətbuatının yaranmasının 141-ci ildönümü, 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə 3 dəfə, habelə Nizami və Suraxanı rayon icra hakimiyyətləri, Gəncə Şəhər İcra Hakimiyyəti, Mədəniyyət və Turizm Nazirliyi, "Azərsu" və "Azərişıq" açıq səhmdar cəmiyyətləri ilə birgə əlavə 7 fərdi jurnalist yazıları müsabiqəsinin keçirildiyini diqqətə çatdırıb. İcraçı direktor, ümumilikdə, keçirilmiş 10 müsabiqədə 806 nəfər jurnalistin iştirak etdiyini, onlardan 445 nəfərinin qalib olaraq mükafatlandırıldığını bildirib.

İcraçı direktor Fondun ötən il əsası qoyulmuş ənənəni davam etdirərək 2016-cı ildə keçirilmiş fərdi yazı müsabiqələrində I yerə layiq görülmüş 57 nəfər jurnalistin yazılarını "Sözün zirvəsində" adlı kitabın II cildində nəşr etdirdiyini də diqqətə çatdırıb.

Çıxışını davam etdirən Vüqar Səfərli 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsi ilə əlaqədar Fondun avqust ayında Xaçmaz, dekabr ayında İsmayıllı rayonlarında etnik-dini icmaların və KİV nümayəndələrinin iştirakı ilə "Azərbaycanda multikultural dəyərlər: mədəni müxtəliflik və sivil birgəyaşayış məkanı" mövzusunda regional konfranslar keçirdiyini xatırladıb. İcraçı direktor, həmçinin Fondun il ərzində "Azərbaycan media məkanında ədəbi dilin qorunması", "Azərbaycan teleradio məkanında ədəbi dilin qorunması" və "Jurnalist peşəkarlığının artırılması" mövzusunda layihələr həyata keçirdiyini qeyd edib.

Sonra müsabiqə qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

* * *

Dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsində birinci yerə layiq görülmüş media nümayəndələrinin mükafatlandırılmasına və qarşıdakı əlamətdar bayramlara həsr olunmuş tədbir keçirilib.

Dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirdə dövlət və hökumət qurumlarının təmsilçiləri, Milli Məclisin deputatları, ölkədə fəaliyyət göstərən diplomatik korpusların nümayəndələri, aparıcı yerli və xarici kütləvi informasiya vasitələrinin rəhbərləri, tanınmış jurnalistlər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Fondun icraçı direktoru Vüqar Səfərli qonaqları və media təmsilçilərini salamlayaraq 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edib. V.Səfərli ölkəmizdə azad sözün, müstəqil mətbuatın inkişafına, jurnalistlərin sosial vəziyyətinin yaxşılaşdırılmasına, onların mənzil probleminin həllinə göstərdiyi yüksək diqqət və qayğıya görə Fondun və media ictimaiyyətinin adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə təşəkkürünü bildirib.

Ölkə rəhbərliyinin mediaya yüksək diqqət və qayğısından söz açan icraçı direktor, bunun nəticəsi kimi Fondun son illər fikir, söz və məlumat azadlıqlarının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirdiyini vurğulayıb. 2009-cu ildən hazırkı dövrə qədər Fonda dövlət büdcəsindən 27 milyon manata yaxın maliyyə vəsaitinin ayrıldığını bildirən V.Səfərli həmin vəsait hesabına mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin peşəkarlığının artırılması və sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində çoxsaylı layihələrin reallaşdırıldığını vurğulayıb. Vüqar Səfərli, həmçinin Fondun 2016-cı ildə gündəlik, günaşırı və həftəlik nəşr olunan 33 qəzetə maliyyə dəstəyi göstərdiyini, həmin qəzetlərdə "Azərbaycan



Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nda nəzərdə tutulmuş 19 istiqamət üzrə 6000 səhifədən çox yazının dərc edildiyini bildirib.

2016-cı ilin "Azərbaycanda multikulturalizm ili" elan edildiyini xatırladan V.Səfərli bununla əlaqədar Fondun dini-etnik icmaların və KİV nümayəndələrinin iştirakı ilə avqust ayında Xaçmaz, dekabr ayında isə İsmayıllı rayonlarında "Azərbaycanda multikultural dəyərlər: mədəni müxtəliflik və sivil birgəyaşayış məkanı" mövzusunda regional konfranslar keçirdiyini qeyd edib. Beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə Fond il ərzində aparıcı KİV-in baş redaktorlarından ibarət nümayəndə heyətinin London və Ankaraya işgüzar səfərlərini təşkil edib.

V.Səfərli Fondun 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri barədə də ətraflı məlumat verib.

Tədbirdə çıxış edən Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin qlobal böhran şəratində bütün sahələrdə inkişaf etdiyini və mühüm uğurlara imza atdığını bildirib. Mətbuat Şurasının sədri Azərbaycanın bölgədə sabit və dinamik tərəqqi edən ölkə olduğunu vurğulayaraq, bunu dövlətimizin başçısının yürütdüyü uğurlu daxili və xarici siyasətlə əlaqələndirib. Ə.Amaşov cənab İlham Əliyevin fenomenal liderlik keyfiyyətlərini diqqətə çəkərək bildirib ki, Azərbaycan məhz bunun sayəsində bir çox maneələri dəf edərək regionda öz sözü və mövqeyi olan lider dövlətə çevrilib. Mətbuat Şurasının sədri dövlət başçısının mediaya əsl dost münasibəti göstərdiyini qeyd edərək ad günü münasibətilə ölkə başçısını jurnalistlər adından təbrik edib.

Sonra söz Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Administrasiyanın ictimai-siyasi məsələlər şöbəsinin müdiri, professor Əli Həsənova verilib. Tədbir iştirakçılarını salamlayan Əli Həsənov təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan söz və məlumat azadlıqlarının daha da inkişaf etdirilməsi istiqamətində son illər ardıcıl tədbirlərin həyata keçirildiyini vurğulayıb: "Media, ümumiyyətlə, bütün dünyada cəmiyyətin ən nüfuzlu ictimai institutudur. Ona görə də ümummilli lider hər zaman medianı cəmiyyətin əsas mexanizmlərindən, əsas ictimai institutlarından biri səviyyəsində görür və dəyərləndirirdi. Təsadüfi deyil ki, media azadlığı, siyasi plüralizm Azərbaycan Konstitusiyasına cəmiyyətin əsas aparıcı meyillərindən, atributlarından biri kimi ümummilli liderin təşəbbüsü ilə daxil edilib. Heydər Əliyev 1998-ci il 6 avqust tarixli Fərmanla media üzərindən bütün dövlət-ictimai tənzimləmə mexanizmlərini aradan qaldırdı və media özünü tənzimləmə yoluna qədəm qoydu. Sonradan Mətbuat Şurası yaradıldı. Beləliklə, media-dövlət-cəmiyyət münasibətləri, medianın fəaliyyətinin əsas istiqamətləri müəyyənləşdirildi".

Azərbaycan Respublikası Prezidentinin köməkçisi çıxışının sonunda 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə bütün jurnalistləri təbrik edərək onlara uğurlar arzulayıb.

Sonra Fondun keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsində I yerə layiq görülmüş jurnalistlər mükafatlandırılıblar.

# Tarif Şurası elektrik enerjisi və təbii qazın istifadəsində tətbiq olunan güzəştli limiti artırıb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi və güzəştin şamil edildiyi əhali istehlakçılarının əhatə dairəsinin daha da genişləndirilməsi məqsədilə Tarif (qiymət) Şurasının iclasında əhali üçün tarifi dəyişməyən təbii qaz üçün təsdiqlənmiş illik istehlak həcmi 1500 kubmetrdən 1700 kubmetrə, aylıq elektrik enerjisinin istehlakının həcmi isə 250 kilovat-saatdan 300 kilovat-saata qaldırılıb.

Bu barədə iqtisadiyyat naziri Şahin Mustafayev jurnalistlərə açıqlamasında deyib.

Qeyd edilib ki, bununla da son tarif tənzimlənməsindən sonra ödənişlərində artım olmayan əhali abonentlərinin sayı təbii qaz üzrə 62 faizdən 75 faizədək, elektrik enerjisi üzrə isə 72 faizdən 80 faizədək yüksəlmiş olur.

Məlum olduğu kimi, Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2016-cı il noyabrın 28-də keçirilmiş iclasında təbii qaz və elektrik enerjisi tariflərinə baxılıb və ölkədə aparılan sosialyönümlü siyasət nəzərə alınmaqla və əhalinin aztəminatlı təbəqəsinin sosial müdafiəsi məqsədilə diferensial tariflərin tətbiqi barədə qərar verilib.

Qərarların tam mətni Tarif (qiymət) Şurasının rəsmi internet səhifəsində (www.tariff.gov.az) yerləşdirilib.

# “Norm”un satış gəlirində ikiqat artım




2015-ci ildə Azərbaycanın ən böyük sement istehsalçısı “Norm” MMC-nin satışdan cəmi gəlirləri 101 milyon 379 min manat təşkil edib. Bu, 2014-cü illə müqayisədə təxminən 2 dəfə çoxdur.

“Marja” MMC-nin maliyyə hesabatına istinadən xəbər verir ki, 2014-cü ildə “Norm”un satışdan cəmi gəlirləri 51 milyon 880 min manat təşkil etmişdi.

101 milyon 379 min manatlıq satışının maya dəyəri 59 milyon 127 min manat təşkil etdiyindən şirkətin xalis gəliri 42 milyon 252 min manat olub.

İnzibati xərclər, məzənnə dəyişməsi nəticəsində yaranmış 45 milyon manatlıq zərər və digər xərclər ilə əlaqədar olaraq, “Norm”ın cəmi xərcləri gəlirlərindən çox olub və şirkət ili 29 milyon 428 min manat zərər ilə başa vurub.

31 Dekabr 2015-ci il tarixinə “Norm” MMC 220 milyon 375 min manat cəmi aktivlərə, 109 milyon 43 min manat cəmi öhdəliklərə və 160 milyon 513 min manat cəmi kapitala malik olub.

“Norm” MMC “Deloitte” tərəfindən yoxlanılaraq rəy verilib.

Qeyd edək ki, istehsal gücü gündə 5 min ton klinker, ildə isə 2 milyon ton sement təşkil edən Norm Sement zavodu Cənubi Qafqazın ən böyük sement zavodudur.

# Mənzil İnşaatı Dövlət Agentli bazarın tələbatının 10%-ni ödəyəcək



Azərbaycanda gənc ailələrin ehtiyaclarına uyğun olaraq, hər il təxminən 30 min yeni mənzil satılır. Mənzil İnşaatı Dövlət Agentliyinin ilkin məqsədi daşınmaz əmlak bazarının hər il 10 faizini təşkil edən uyğun qiymətə (güzəştli) yeni mənzillərin (təxminən 3 min mənzil) satılmasından ibarət olacaq.

"Marja" xəbər verir ki, bu barədə “Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi”ndə bildirilib.

Bu artım uyğun qiymətə mənzillərin sayının lazımi səviyyədə və mənzil bazarında tarazlığı pozmadan artmasına səbəb olacaq.

Agentliyin mənzil təminatı ilə bağlı hədəfləri real mənzil bazarının göstəriciləri əsasında hər il yenilənəcək və belə hədəfləri müəyyən edərkən eyni təşəbbüsləri həyata keçirən digər ölkələrdə müəyyən edilmiş əsas faktlar nəzərə alınacaq.

# Neftçalada traktor istehsalının təşkili müzakirə olunur



Bakı və Tehran arasında Neftçala rayonunda Təbriz traktor zavodunun istehsal meydançasının təşkili məsələsi müzakirə olunur.

Bu barədə iqtisadiyyat naziri Şahin Mustafayev bildirib.

“İclasda Neftçala Sənaye Məhəlləsində Təbriz traktor və maşınlarının istehsalının təşkili məsələsini müzakirə edəcəyik”, - deyə Ş.Mustafayev bu gün Bakıda keçirilən Azərbaycan-İran Hökumətlərarası Komissiyanın iclasında bəyan edib.

O xatırladıb ki, Neftçala Sənaye Məhəlləsində İranın avtomobil istehsalı zavodunun tikintisi davam edir.

“Bundan başqa, 2017-ci ilin yanvar ayının ilk yarısında İranİslam Respublikasının kooperasiya,əmək və sosial rifahnazirinin iştirakı ilə Pirallahı Sənaye Parkında əczaçılıq zavodunun təməli qoyulacaq”, - deyə Ş.Mustafayev vurğulayıb.




Gəncə avtomobil zavodu
"Kiçikdən böyüyə", addım-addım inkişafa doğru










*Dünya azərbaycanlılarının Həmrəyliyi günü və Yeni il bayramı münasibəti ilə Azərbaycan xalqına can sağlığı, xoşbəxtlik, firavanlıq, Azərbaycanın tərəqqisi naminə daha böyük uğurlar arzulayırıq.*

*Bayramınız mübarək!*



*31 dekabr - dünya azərbaycanlılarının Həmrəylik günü və yeni təqvim ili münasibəti ilə xalqımızı səmimi qəlbdən təbrik edir, ona gözəl bayram əhval-ruhiyyəsi, xoş güzəran, xoşbəxtlik və firavan həyat arzulayır.*

*Dəvəçi Dəyirman ATSC*

# Azercell-dən "Yeni Il 2017" kampaniyası

Azercell Telekom MMC yeni il münasibəti ilə yeni sərfəli kampaniyalar və unikal xidmətlər ilə abunəçilərini sevindirməyə davam edir. Şirkət bu münasibətlə abunəçilərinə hazırladığı "Yeni il 2017" kampaniyasını təqdim edir. "Yeni il 2017" kampaniyası abunəçilərə həm 2 fərqli 4g smartfon seçimi, həm də sərfəli danışıq fürsəti verir. Belə ki, 26 dekabr 2016-cı ildən etibarən Azercell abunəçiləri "Yeni il 2017" kampaniyasına qoşularaq, 1 il ərzində ayda sadəcə 25AZN ödəməklə Lenovo 2016 + 5GB internet və ya ayda cəmi 45AZN ödəməklə General Mobile 5+ smartfonu + 5GB internet əldə edəcəklər. Bununla yanaşı, kampaniya abunəçiləri ölkə daxilində sərfəli danışmaq imkanı qazanacaqlar. Kampaniyaya qoşulmaq üçün abunəçilər Azercell Müştəri Xidmətləri, Azercell Express-lərə və Bakı Diler Şəbəkəsinə müraciət etməlidirlər.

Yüksək sürətli mobil internetdən istifadəni mümkün edən smartfonları əhaliyə əlverişli şərtlərlə təqdim etmək niyyətini əsas tutaraq, Azercell bundan sonra da bu tip sərfəli kampaniyaları abunəçilərinə təqdim edəcək.





# UNEC-də "I Universitetlərarası Ana dili" müsabiqəsi keçirilib

Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) "I Universitetlərarası Ana dili" müsabiqəsi keçirilib. Dünya azərbaycanlılarının həmrəyliyi gününə həsr edilən müsabiqə "İqtisadçı Tələbələrə Dəstək" İctimai Birliyi və "UNEC Yaradıcılıq Mərkəzi"nin birgə təşkilatçılığı ilə həyata keçirilib. Tədbirin məqsədi milli sərvətimiz olan ana dilinin təbliğinə, onun gənclərə sevdirilməsinə və gələcək nəsillərə çatdırılmasına xidmət etməkdir.

Münsiflər heyəti – xalq artisti Nurəddin Mehdixanlı, əməkdar artist Zaur Əmiraslanov, filologiya elmləri doktoru, professor Zahid Xəlil, yazıçı-ssenarist Vüsal Nuru və "Azəri Star" layihəsinin laureatı Aygül Məmmədova UNEC-də reallaşdırılan layihənin müxtəlif ixtisas sahibləri olacaq tələbələrin yaradıcılıq qabiliyyətlərinin də üzə çıxarılmasında mühüm əhəmiyyət kəsb etdiyini xüsusi vurğulayıblar.

Nəhayət, 17 universitetin tələbələri şeir və mahnı kateqoriyaları üzrə bacarıqlarını sınayıblar. Gərgin keçən şeir müsabiqəsində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbəsi Ümman Budaqov I yerin qalibi olub. II yerə UNEC tələbəsi İqbal Bayramov, III yerə isə Sumqayıt Dövlət Universitetinin tələbəsi Əliyar Rəfiyev layiq görülüb.

Ən yaxşı mahnı ifaçısı isə UNEC tələbəsi, gənc vokalçı Aslan Əzimzadə seçilib. II yerə ADMİU tələbələri Azər Səlimov, Ağayar Xanlarov, Cahandar Xanlarov, III yerə isə Odlar Yurdu Universitetinin tələbəsi Ənvər Məmmədhəsənov layiq görülüb.

Qaliblər diplom və mükafatla təltif ediliblər.

# Yeni Biznes-jurnalistika proqramına start verildi

Azərbaycanın ən iri banklarından biri olan PAŞA Bankın "British Council" ilə birgə həyata keçirdiyi Biznes-jurnalistikası layihəsi çərçivəsində ilk təlimləri başa çatmışdır. Bu il layihə çərçivəsində AzərTAc, APA, ARB, Space TV, SIA,Trend daxil olmaqla, Azərbaycanın bir neçə aparıcı KİV-ini təmsil edən 12 jurnalist layihədə iştirak üçün seçilmişdir.

Layihə çərçivəsində seçilmiş jurnalistlər növbəti aylar ərzində peşəkar və rəqəmsal media bacarıqları üzrə təlimlər keçəcəklər. Jurnalistlər hər biri 5 gün olmaqla ümumilikdə Bakıda üç təlim sessiyalarında və sonda Birləşmiş Krallıqda bir həftəlik təlim səfərində iştirak edəcəklər. Növbəti təlimlər 2017-cil ilin yanvar ayında təşkil ediləcəkdir.

Qeyd edək ki, Biznes-jurnalistikası layihəsi PAŞA Bank və British Council ilə birgə uğurlu əməkdaşlıqda artıq altı ildir ki, həyata keçirilir və bu müddət ərzində Azərbaycanın 60-a yaxın jurnalisti xüsusi hazırlanmış proqram üzrə peşəkar media qabiliyyətləri və bacarıqları üzrə təlimlərdə iştirak etmişdir. Layihə bütün dünyada minlərlə jurnalistin hərtərəfli inkişafı üzrə fəaliyyət göstərən və 100-dən çox ölkədə media sahəsində ən yüksək etik və peşəkar standartları təşviq edən Avropanın ən böyük media təşkilatlarından biri olan Birləşmiş Krallığın Thomson Fondu ilə birgə əməkdaşlıq sayəsində həyata keçirilməkdədir.

# "PAŞA Həyat" şirkəti valideynlərini itirmiş və fiziki qüsurlu uşaqları sevindirib

"PAŞA Həyat" şirkəti Sumqayıt şəhərində keçirilən "Mərhəmətli olmağa tələsin" ənənəvi xeyriyyə aksiyasında fiziki qüsurlu və valideylərini itirmiş uşaqlara isti qış geyimləri təqdim edərək onlara sevinc bəxş edib.



Şirkətin mətbuat katibi Elnur Hüseynquluyevin verdiyi məlumata görə, aksiyaya bu ilin noyabr ayının 16-dan 50-yə yaxın idarə və müəssisə nümayəndələrinin iştirakı ilə start verilib. "PAŞA Həyat" şirkəti hər il keçirilən "Mərhəmətli olmağa tələsin" aksiyasının fəal iştirakçı təşkilatlarından biridir. Ötən ildə də keçirilən aksiyada yaxından iştirak etmişik. Əsas məqsəd Sumqayıt şəhərində ehtiyacı olan uşaqların isti qış geyimləri ilə təmin olunmasında yardımçı olmaqdır. Ümumiyyətlə, biz "PAŞA Həyat" şirkəti olaraq bu cür aksiyaların keçirilməsini daim dəstəkləyirik. Növbəti ildə də keçiriləcək bu aksiyaya öz dəstəyimizi göstərəcəyik" - deyə E.Hüseynquluyev bildirib.

Qeyd edək ki, "Mərhəmətli olmağa tələsin" ənənəvi xeyriyyə aksiyası hər il "Azərikimya" İstehsalat Birliyi, Respublika "Qızıl Aypara" Cəmiyyətinin Sumqayıt şəhər təşkilatının təşəbbüsü ilə keçirilir. Bu il keçirilən tədbirdə aztəminatlı ailələrdən olan, bir və hər iki valideynini itirmiş, valideyn himayəsindən məhrum olan, həmçinin fiziki qüsurlu 180 uşağa Sumqayıt və Bakıda fəaliyyət göstərən müxtəlif müəssisə və təşkilatlar tərəfindən təzə isti qış geyimləri paylanılıb.

# Əlilliyi olan uşaqların valideynləri üçün maarifləndirici tədbir keçirildi

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkətinin sponsorluğu, "Uğur Akademiyası" və "UAFA"-nın təşkilatçılığı ilə xüsusi qayğıya ehtiyacı olan uşaqların valideynləri üçün maarifləndirici seminar keçirilib. Seminarın keçirilməsində əsas məqsəd sağlamlıq imkanları məhdud olan uşaqların valideynlərinə dəstək olmaq, məsləhət vermək və məlumatlandırmaq idi. Spikerlər, bu sahə üzrə geniş təcrübəyə malik mütəxəssislər- Ülviyyə Mirzəyeva və Zəhra Xəlfli əlilliyi olan uşaqlar və valideyn münasibətləri, onlara qarşı cəmiyyətdə mövcud olan yanaşmalar, stiqmalar, həmçinin bu problemlərin aradan qaldırılmasının həlli yolları haqqında çıxış ediblər.

Tədbirə həmçinin paralimpiya çempionu İlham Zəkiyev və dünya çempionu Aynur Məmmədova da qatılıblar. Onların çox maraqlı həyat hekayələri nəinki tədbirdə iştirak edən, əlilliyi olan uşaqlar və onların valideynləri üçün eyni zamanda, əlilliyi olmayan insanlar üçün elə böyük motivasiya oldu. Çempionlar seminar iştirakçılarına əlilliyin baryer olmadığını və insanın öz əzmi sayəsində, əlilliyinin olub-olmamasından asılı olmayaraq, həyatda istədiyi mövqeyə sahib olmasının mümkün olduğu barədə danışıblar.

Tədbirin sonunda spikerlər onlara ünvanlandırılmış sualları cavablandıraraq, ehtiyacı olan valideynlərə müvafiq məsləhətlər veriblər.

# XARİCİ REKLAM



*(əvvəli ötən sayımızda)*

* İnformasiya göstəricisi dövlət standartları siyahısından ibarətdir.
* Mediafasad – binanın xarici və daxili hissəsində qoyulan, onun səthində sərbəst ölçüdə və formada yerləşən, binanın memarlıq görünüşündə üzvi surətdə qurulmuş displey.
* Dam qurğuları – neon, xarici və daxili işıqlardan istifadə etməklə binanın damında yerləşən ekskluziv imic konstruksiyaları. Tranzit reklamları yaxud nəqliyyatda reklama aiddir:
* Şəxsi avtomobillərdə reklam (nəqliyyatın brend edilməsi);
* Marşrut taksilərin xarici görünüşündə və salonunda reklam;
* Yerüstü ictimai nəqliyyat vasitələrinin (avtobus, tramvay və s.) xarici görünüşündə və salonunda reklam;
* Metroda (stansiyalarda, giriş və çıxışlarda, tunellərdə, vaqonlarda) reklam;
* Taksilərin laytbokslarında reklam (işıq qutuları);
* Skamyalarda reklam;
* Asfalt üzərində reklam;
* Parkinqlərdə və ya duracaqlarda reklam;
* Ambient media reklamı ənənəvi kommunikativ formalardan fərqlənir və ictimai yerlərdə klassik kütləvi informasiya vasitələrindən fərqli, yeni daşıyıcıları işləyib hazırlayaraq, məqsədli qrupun intim sferası olan istehlakçıya daha yaxın yerləşir.

Reklam təsvirinin ölçüləri ( hündürlüyü və uzunluğu) reklam səthinin formatı adlanır. Şəbəkə reklam daşıyıcıları əksəriyyət çoxluğu ilə standartlaşmış formatlara malik olurlar və bu standartlar ölçülərin reklam təsvirlərini (posterləri) hazırlamağa imkan verir. Reklam daşıyıcılarının ən geniş yayılmış formatlarına (uzunluq, en) aiddir:

* 6x3 m (bilbord (reklam lövhəsi);
* 1,2x1,8 (siti format);
* 1,4x3m (pillar);
* 3,7x2,7m (sitibord);
* 4x12,5x15 m (supersayd)
* 12,5-40 m (meqabort) və ya (nəhəng bilbord). Bundan əlavə, reklam daşıyıcıları müəyyən tiplərə bölünür ki, onların da adları çox zaman formatların adları ilə üst-üstə düşür və bu da müəyyən qarışıqlığa gətirib çıxarır.

Reklam daşıyıcılarının ən geniş yayılmış növlərinə aiddir:

* lazer reklamı;
* dam qurğusu;
* bilbord (reklam lövhəsi);
* supersayd, superbord;
* videoekran;
* prizmatran;
* stela (yazısı olan daş plitə və ya sütun)
* kronşteyn-panel;
* roller displey;
* çəkib bərkitmə (yaxud tarın çəkmə);
* bayraq kompozisiyası;
* brend maner, yəni Microsoft Windows-da qurulan şəbəkələrarası ekran;
* reklam toru və ya taxtabənd, yaxud metaldan düzəldilmiş müvəqqəti qurğunun üzərində tor (yüngül və müvəqqəti brend maner);
* elektron tablo (qaçan sətirlər);
* markiza (reklam və ya dekorativ sipər);
* lövhə (işıq qutusu);
* reklam pnevmofiqurlar, multisferalar;
* yol göstəricisi;
* Siti format – pilonlar, dayanacaq pavilyonları, NoReCA (ictimai iaşə və mehmanxana təsərrüfatı sferasını ifadə edən termindir və hotel,restaurant, catering və ya otel, restoran, keyterinq kimi sözlərin birinci iki hərfindən götürülmüşdür);
* pillar;
* həcmli səth, yaxud üz konstruksiyası (insanların, heyvanların, əşyaların böyüdülmüş süni təsviri);
* tranzit reklamı – ictimai təqliyyatda reklam;

- avtomobillərdə reklam;
- canlı reklam;
- parkinqlərdə və ya duracaqlarda reklam;
- metroda reklam;
- ştender;
- hasarlarda, yaxud çəpərlərdə reklam;
- asfalt üzərində reklam – adətən, aerozol boyasının köməyilə bilavasitə asfaltın səthinə vurulur. Pnevmofiqurlar və multisferalar reklam daşıyıcıları arasında xüsusilə fərqlənir. Pnevmofiqurlar bərk birqat və ya ikiqat parçadan hazırlanmış, hər hansı formada fiqur şəklində üfürülmüş, yaxud hava doldurulmuş konstruksiyalardır. Parçanın üzərində sloqan və ya loqotip vurula bilər. Fiqurun əsası (özülü və ya bünövrəsi) ona möhkəmlik vermək üçün daha bərk maddədən düzəldilir. Pnevmofiqurlar, həmçinin damların, döşəmələrin, ticarət və ya sərgi mərkəzlərinin və s. hamar səthi üzərində quraşdırmaq üçün xüsusi bərkidiciyə malik olur.

Multi sferalar (mediaşarlar) üzərində lazer proyektordan alınan təsviri proyeksiya edə bilən birqat, ikiqat və ya üçqat parçadan hazırlanmış spesifik proyeksiya ekranıdır. Konstruksiyanın xüsusiyyəti ondan ibarətdir ki, o, həm birbaşa, həm də əks proyeksiya üçün yararlıdır, yəni müxtəlif dinamik təsvir üfürülmüş və ya hava ilə doldurulmuş sferanın həm daxili, həm də xarici səthində təsvir oluna bilər. Pnevmofiqurların və multisferaların hədd ölçüsü küləyin gücü ilə məhdudlaşır.

Xarici reklamın yerləşməsi, bir qayda olaraq, reklam qanunvericiliyi ilə tənzimlənir. Azərbaycanda xarici reklamın yerləşdirilməsi "Reklam haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

**F.M.Qarayev,**
**BDU-nun dosenti**

# Yüksək Texnologiyalar Parkında yeni rezident şirkət fəaliyyətə başlayır

Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin həyata keçirdiyi işlər və apardığı islahatlar nəticəsində Yüksək Texnologiyalar Parkında daha bir yeni rezident şirkət fəaliyyətə başlayır.

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, Azərbaycan şirkəti olan "CRM GROUP" MMC hazırda Azərbaycana idxal olunan məhsulların yerli əvəzedicilərinin hazırlanması istiqamətində öz biznes fəaliyyətini qurmağı planlaşdırır. İT proqram həllər və müxtəlif avadanlıqların araşdırılması, elmi tədqiqat və təcrübə-sınaq işlərinin aparılması, onların nəticələrinin sənayeyə tətbiq edilməsi üçün rezident şirkət tərəfindən bir sıra işlərin görülməsi nəzərdə tutulub.

"CRM GROUP" MMC şirkətinin məqsədi Azərbaycan və regional İT bazarının tələblərinə əsasən yeni texnoloji avadanlıqların istehsalı, qonşu ölkələrə ixrac olunması, həmçinin İT innovasiyaların "Made in Azerbaijan" brendi altında dünya bazarlarında tanıtımı və yerli innovativ məhsulların araşdırılıb inkişaf etdirilməsidir.

Şirkətin təqdim etdiyi "CRM İT İNNOVATİON PRODUCTS" layihəsinin Pirallahı adasında Yüksək Texnologiyalar Parkının ərazisində həyata keçirilməsi üçün 2,5 hektar sahənin ayrılması nəzərdə tutulub. Bu ərazidə laboratoriyaların, anbarın, ofis və yardımçı sahələrin qurulması planlaşdırılır.

Yüksək Texnologiyalar Parkının sayca ikinci rezidenti olacaq bu şirkətin 2020-ci ilə qədər Azərbaycanda lazer printer tonerlərinin aparıcı distribütoru olması, həmçinin İT proqram həlləri və xidmətləri üzrə aparıcı şirkətə çevrilməsi hədəf seçilib.

Qeyd edək ki, Yüksək Texnologiyalar Parkı yerli İT şirkətləri ilə yanaşı, innovativ startap lahiyələrə daimi olaraq dəstək verməkdədir.

# UNEC-də qış imtahan sessiyası başladı

**Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) 2016/17-ci tədris ilinin qış imtahan sessiyası başlayıb. Artıq start verilən yeni sessiya dövründə də tələbələrin biliyinin obyektiv qiymətləndirilməsi və şəffaflığın təmin edilməsi prioritet seçilib. Bununla bağlı UNEC-də bir sıra yeniliklər tətbiq edilib.**

Bu il də UNEC-də imtahanlar ictimaiyyətə açıq keçiriləcək. Sessiya dövründə ilk dəfə olaraq QHT nümayəndələri tələbələr arasında sessiya ilə bağlı anonim sorğu keçirəcəklər. Sorğunun nəticələri imtahanların təşkili və tələbə biliyinin qiymətləndirilməsi ilə bağlı real vəziyyəti ortaya çıxaracaq. Qarşıya çıxan problemlərin həlli üçün müvafiq addımlar atılacaq.

Qış imtahan sessiyasının bir yeniliyi də ondan ibarətdir ki, bu il universitetin "Qaynar xətt" (146-1-3) xidməti QHT, KİV və ictimaiyyət nümayəndələrinə həvalə ediləcək. Xidmətə daxil olan müraciət və şikayətlərə, eyni zamanda, onların araşdırılmasına da yalnız onlar nəzarət edəcək.

Sessiyanın sonuna kimi UNEC-də kitabxana və oxu zalları axşam saat 22.00-dək işləyəcək. Tələbələr imtahana hazırlaşarkən yaranan sıxlığın aradan qaldırılması üçün bütün tədris binalarında fasiləsiz internetlə təmin edilən xüsusi auditoriyalar ayrılıb.

Sessiya dövründə hər həftənin şənbə günü saat 10:00-12:00-da UNEC rektorunun "Açıq qapı" günü keçiriləcək. UNEC-in rektoru, professor Ədalət Muradov KİV və QHT nümayəndələrini "Açıq qapı" günlərində, həm də imtahan sessiyasında yaxından iştirak etməyə dəvət edib: "Universitetdə təhsilin keyfiyyətinin davamlı təkmilləşdirilməsi üçün sizin rəyiniz bizim üçün çox əhəmiyyətlidir".

Qeyd edilənlər rektorun qış imtahan sessiyasının başlaması münasibəti ilə tələbə və valideynlərə müraciətində də öz əksini tapıb. Müraciətdə bildirilib ki, imtahan sessiyası ictimaiyyətə açıq keçirilir və istənilən valideyn övladının imtahanını izləyə bilər. Jurnalistlər isə "nəzarətçi" qismində imtahanlara cəlb ediləcəklər.

Zaqatala və Dərbənd filialları, eyni zamanda, Maliyyə-İqtisad Kollecində də imtahanlar eyni qaydada keçiriləcək.

UNEC-də qış imtahan sessiyası fevralın 2-də yekunlaşacaq. Hər bir kurs üzrə ən çox bal toplayan 15 tələbəyə ikinci əlaçı təqaüdü veriləcək. Məqsəd həm də UNEC tələbələrinin təhsilə olan maraqlarının stimullaşdırılmasıdır.

# "Süni Mərmər və Qranit İstehsalı" zavodunun təməli qoyulub

Gəncədə "Süni Mərmər və Qranit İstehsalı" zavodunun təməlqoyma mərasimi keçirilib.



Təməlqoyma mərasimində Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev, "Süni Mərmər və Qranit İstehsalı" zavodunun direktoru Aqil Həsənov və şəhər ictimaiyyəti nümayəndələri iştirak ediblər.

"Süni Mərmər və Qranit İstehsalı" zavodunun direktoru Aqil Həsənov 37,5 hektar ərazidə yerləşəcək zavodun bağlı sahəsinin 50 min kvadratmetr olacağını vurğulayıb. Bu sahənin 2016-cı ilin mart ayında "Satınalma və Ticarət" MMC-yə verildiyini qeyd edən zavod direktoru bildirib ki, ərazi əvvəllər təpələrdən və dərələrdən ibarət olub. Ərazinin düzəlməsi, hamarlanması və bərkidilməsində 8 ay ərzində 150 nəfər işçi çalışıb. Zavodun Cənubi Qafqazda yeganə süni mərmər və qranit istehsal edəcəyini vurğulayan A.Həsənov qeyd edib ki, tikinti materialları ölkə xaricində də ixrac ediləcək.

Qeyd edək ki, dəmiryolu xəttinin vasitəsilə xammalların ətraf rayondan tikinti gedən sahəyə daşınması, onların hazır məhsula çevrilib yerli və xarici bazarlara çıxarılması nəzərdə tutulub. 2017-ci ilin noyabr ayında istehsala başlayacaq zavodda 400 nəfərdən çox işçi çalışacaq.

# Görkəmli alim, yorulmaz tədqiqatçı, gözəl insan
# MƏŞƏDİXANIM NEMƏT



*Qədim əlyazmalar və daş kitabələr tarixçinin ən etibarlı bələdçisidir. Onlar səbirli tədqiqatçını həqiqətə, dəqiq və nadir tarixi mənbələrə doğru aparır. Ancaq bu çətin və əzablı yol insan ayağı dəyməyən yerlərdən, uçurumlu dağlardan, dərin dərələrdən, ot basmış orta əsr qəbiristanlıqlarından keçir. Tarix elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Məşədixanım Nemət 60 ildən çox bu çətin tədqiqat yollarında addımlayırdı. Azərbaycanın ilk epiqrafçı alimlərindən olan bu fədakar insan daş kitabələri oxumaqla tariximizə, mədəniyyətimizə əvəzsiz töhfələr vermişdir. Epiqrafik sənədlərin toplanması nə qədər çətindirsə, o sənədlərin üzünün köçürülməsi və oxunması, şərh edilməsi də bir o qədər mürəkkəb və zəhmətli prosesdir.*

Məşədixanım Nemət Azərbaycanın tarixi ərazisini qarış-qarış gəzərək ərəb qrafikasının müxtəlif xətləri ilə babalarımızın daşlara həkk etdikləri daş salnamələri vərəqləmiş, ölkənin iqtisadi-siyasi, sosial-mədəni, memarlıq, sənətşünaslıq, islam fəlsəfəsi problemlərinə dair yeni və dəqiq sənədlərlə tariximizi zənginləşdirmişdir. Görkəmli tədqiqatçı 2500-dən artıq epiqrafik abidəni toplayaraq onların tarixi əhəmiyyətini müəyyənləşdirmişdir. Bu elmi fəaliyyətin nəticəsi kimi 12 monoqrafiyanı, 200-dən çox elmi məqaləni və 6 cildlik "Azərbaycanın epiqrafik abidələrinin toplusu"nu oxuculara təqdim etmişdir.

Məşədixanım Nemətova haqqında çox deyilib və yazılıb. Təkcə bizim "İqtisadiyyat" qəzetində onun haqqında müxtəlif vaxtlarda dəfələrlə dərc olunub. Hər dəfə də Məşədixanım müəllimənin qonağı olarkən onun şirin söhbətlərinin, maraqlı açıqlamalarının şahidi olmuşuq.

Azərbaycan tarixçilərinin öhdəsinə düşən vacib vəzifələrdən biri ermənilərin Azərbaycan torpaqlarını mənimsənilməsində irəli sürdükləri "elmi" dəlillərin əsassız və uydurma olduğunu dünya ictimaiyyətinə sübut etməkdir. Bu çətin vəzifənin öhdəsindən gəlmək məhz Məşədixanım müəlliməyə nəsib olmuşdur. O, Azərbaycanın tarixi ərazisindəki epiqrafik abidələri tədqiq etməklə, ölkəmizin ərazi bütövlüyünü sübut edən dəqiq dəlillər irəli sürmüş, bununla da bədnam qonşularımız olan ermənilərin həyasız iddialarına tutarlı cavab vermişdir.

Məşədixanım Sədulla qızı Nemət (Nemətova) 1924-cü il yanvarın 5-də Bakının 2-ci Zabrat kəndində doğulub. 1941-ci ildə orta məktəbi, 1948-ci ildə ADU-nun (indiki BDU) şərqşünaslıq fakültəsini bitirib. Azərbaycan EA-nın Tarix İnstitutunun aspirantı olan M.Nemət 1954-cü ildə namizədlik, 1968-ci ildə isə doktorluq dissertasiyasını müdafiə edib. 2001-ci ildə AMEA-nın müxbir üzvü seçilib. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 4 mart 2009-cu il tarixli Sərəncamı ilə "Şöhrət" ordeninə layiq görülüb.

Məşədixanım Nemət tarix elminin ən çətin sahəsi olan epiqrafika ilə məşğul olmuş və bütün mənalı ömrünü bu işə həsr etmişdir. Epiqrafika elmi üzrə mütəxəssisi heç bir universitet yetişdirmir. Bu elm sahəsi məhz Məşədixanım Nemətin sevgisi, yorulmazlığı sayəsində Azərbaycanda elə bir binaya çevrilmişdir ki, onun varlığı ilə dünya hesablaşır.

Şair təbiətli Məşədixanım "Hicran" təxəllüsü ilə şeirlər də yazardı. Onun aşağıdakı misraları sanki bütün həyatının mənasını ifadə edir:

Var idim, izim qaldı,
Od idim, közüm qaldı,
Tarixin daş yaddaşında,
Mənim də sözüm qaldı...

Azərbaycan elmi Məşədixanımın simasında böyük alimi, gözəl insanı, yorulmaz tədqiqatçını itirdi.

Sağlığında şan-şöhrəti, süni münasibətləri xoşlamayan, bütün mənalı ömrünü yalnız elmi araşdırmalara və ailəsinə həsr edən Məşədixanım son mənzilə ailəsinin arzusu ilə elə doğulduğu Zabrat kəndində - sevgili Vətəninin ən kiçik bir guşəsində torpağa tapşırıldı. Ruhu şad, yeri behişt olsun!

Allah rəhmət eləsin!
"İqtisadiyyat"




## Dərman fabrikinin tikintisinə başlanacağı tarix açıqlandı

"Son 3 ildə İranla Azərbaycan arasında münasibətlər daha da inkişaf edib. Həmçinin, ölkə başçılarının qarşılıqlı səfərləri olub. Bu səfərlər çərçivəsində 40-dək sənəd imzalanıb". Bunu Azərbaycan-İran iqtisadi, ticarət və humanitar əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyasının Bakıda keçirilən XI iclasında Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev deyib.

Ş.Mustafayev qeyd edib ki, Şimal-Cənub nəqliyyat dəhlizi layihəsinin birinci hissəsinin icrası artıq başa çatıb: "Son illər bizim hökumət nümayəndələrinin 100-ə yaxın səfəri olub. Hökumətlərarası Komissiyanın işinin uğurla təşkilinə görə, Komissiyanın İran tərəfindən sədri Vaezi Prezident tərəfindən Dostluq Ordeni ilə təltif edilib".

Nazir deyib ki, yanvarın ilk yarısında Bakıda İran şirkətlərinin də iştirak etdiyi dərman fabrikinin tikintisinin əsası qoyulacaq.

## Daha bir avtomobil brendi Azərbaycana gəlir

Söhbət İtaliya avtomobil brendi "Alfa Romeo"dan gedir.

Artıq marka Azərbaycan bazarına da daxil olur. Avtomobillərin satışını İtaliya superkarlarının Azərbaycanda rəsmi idxalçısı "Avtolux Azerbaijan" şirkəti həyata keçirəcək. Brendin yanvar ayında təqdimatı gözlənilir. İlkin olaraq "Alfa Romeo"nı biznes sinfinə aid modellərinin satışı planlaşdırılır.



Qeyd edək ki, bununla da "Avtolux Azerbaijan"ın satışı həyata keçirdiyi avtomobil brendlərinin sayı 4-ə çatır. Bundan əvvəl şirkət "Ferrari", "Lombarghini" və "Aston Martin" superkarlarının rəsmi təmsilçisi idi.

### ELAN

Əlimirzəyev İlyas Xanəhməd oğluna verilmiş Buzovna qəsəbəsində yerləşən bağın icarəyə verilməsi haqqında 28795№-li müqavilə itdiyi üçün etibarsız sayılır.

iDEAL DiZAYN
Daimi tərəfdaşınız

Ofis mebeli və layihələr

- Metal dolablar
- Metal stellaj sistemi
- Metal tumbalar
- Metal seyflər
- Metal masalar



Tel.: 012 480 37 55
E-mail: office@idealdizayn.az
www.idealdizayn.az

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri, akademik Ziyad Səmədzadə Azərbaycanın görkəmli alimi, AMEA-nın müxbir üzvü
**MƏŞƏDİXANIM SƏDULLA QIZI NEMƏTOVANIN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri, akademik Ziyad Səmədzadə Azərbaycanın xalq artisti, görkəmli muğam ustası, "Şöhrət" ordenli
**AĞAXAN ABDULLAYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri, akademik Ziyad Səmədzadə Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahova əzizi
**RAMİZ QOCAYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri, akademik Ziyad Səmədzadə Zeynal Nağdəliyevə qardaşı
**SAHİB NAĞDƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri, akademik Ziyad Səmədzadə AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun direktoru, professor Misir Mərdanova anası
**MƏLƏK XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri, akademik Ziyad Səmədzadə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdir müavini Məhərrəm Əhmədova anası
**MƏLƏK XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri, akademik Ziyad Səmədzadə Elxan Usubova
**SVETLANA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Akademik Ziyad Səmədzadə ailəsi ilə birlikdə Aydın və Sevda Hacıyevlərə əzizləri
**KAMİL MÜƏLLİMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN**

Təsisçi:
akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor: Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566-09-60
Ümumi şöbə: 514-14-27 (fax)
Mühasibatlıq: 566-63-08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir.
"İQTİSADİYYAT" qəzetinin kompyuter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir.
Lisenziya: 022201 İndeks: 0355 Tiraj: 3150